20 iyul 2022 №53 (1926)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Avropa İttifaqı Azərbaycanla tərəfdaşlığa xüsusi önəm verir



Bu gün imzalanan memorandum gələcək üçün bir növ yol xəritəsidir. Nəzərə alsaq ki, əvvəlcə planlaşdırdığımız bütün məsələlər tərəfimizdən icra olunub, əminəm, bundan sonra da böyük uğurlara imza atacağıq. Bu gün müzakirə etdiyimiz digər məsələlər sırasında şəbəkələrin qurulması məsələsi oldu. Azərbaycanın coğrafi mövqeyini və müasir daşımalar infrastrukturunu nəzərə alaraq, biz potensialımız arasında şəbəkənin qurulması üzərində daha fəal çalışmalıyıq.

Prezident İlham Əliyev bu sözləri iyulun 18-də Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen ilə görüşdən və Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında enerji sahəsində strateji tərəfdaşlığa dair memorandumun imzalanmasından sonra mətbuata bəyanatında deyib.

*davamı səh. 2-də*

## Türk dünyasının ortaq dəyəri – Bayburtda Dədə Qorqud Festivalı

İyulun 18-də Türkiyənin Bayburt şəhərində ənənəvi "Beynəlxalq Dədə Qorqud Mədəniyyət və Sənət Festivalı başlanıb. Festival 26-cı dəfə keçirilir.

Əvvəlcə Bayburtda Gənc Osman məhəlləsi Akşemsettin küçəsində yerləşən Dədə Qorqud məzar-türbəsi ziyarət edilərək önünə əklil qoyulub. Sonra Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün abidəsi önünə əklil qoyulub.

Tədbir Mehteran orkestrinin müşayiəti altında şəhərin mərkəzi prospektində kortej yürüşü ilə davam edib. Masat yaylağında çıxışlardan və bədii hissədən ibarət proqram gerçəkləşdirilib.

Festivalın rəsmi açılışında Bayburt Bələdiyyəsinin başqanı Hükmü Pekmezci, vali Cüneyt Epcim, Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş, Türkiyə Böyük Millət Məclisinin üzvləri Sadir Durmaz, Fetani Battal, Gökhan Zeybek, Ankara Hacı Bayram Veli Universitetinin dekanı Gültekin Akenginin çıxışları dinlənilib.

Sadir Durmaz bildirib ki, Bayburt milli mədəniyyətin canlı şəkildə qorunduğu qədim türk yurdudur: "Dədə Qorqudun Bayburt üçün xüsusi yeri var. Bayburt təkcə Dədə Qorqud coğrafiyası daxilində yerləşən bir vilayət deyil, məkan mənasında Dədə Qorqudu yaşadan bir şəhərdir".



Çıxışlarda diqqətə çatdırılıb ki, Türk dünyasının, xalqlarımızın ortaq dəyəri olan Dədə Qorqud irsinin öyrənilməsi gənc nəslin düzgün tərbiyə olunmasında əvəzsiz mənəviyyat qaynağıdır. Dədə Qorqud şəxsiyyəti və bu mövzuda yaradılan əsərlər əsrlərə işıq salan milli-mənəvi gücümüzün, çoxşaxəli mədəniyyətimizin göstəriciləridir. Çıxış edənlər Dədə Qorqudun türk xalqlarının ortaq dəyəri olmasını mənəvi dünyamızın zənginliyi kimi xarakterizə ediblər.

Ənənəvi olaraq təşkil edilən festivalın məqsədi Türk dünyasının ortaq dəyərlərindən olan Dədə Qorqud irsi ilə bağlı görülən işlərə nəzər salmaq, bu sahədə yaradılan əsərlərlə bağlı fikir mübadiləsi aparmaq, tarixi irsimizlə bağlı qarşıda duran vəzifələri müəyyənləşdirməkdir.

Açılış mərasimi xalq rəqsləri kollektivlərinin çıxışları ilə yekunlaşıb.

*davamı səh. 2-də*

## "Yüksəliş"lə irəli gedənlər

Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən, ölkəmizdə intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə "Yüksəliş" müsabiqəsi təsis olunub. Bu il müsabiqə ikinci dəfə keçirilir.

İyulun 15-17-də ikinci "Yüksəliş" müsabiqəsinin final mərhələsi təşkil edilib. Bakı Ekspo Mərkəzində baş tutan müsabiqənin




final mərhələsi çərçivəsində "Müasir çağırışlar və insan kapitalının formalaşması" mövzusunda idarəçi rəhbərlərin çıxışları olub.

Final mərhələsində müsabiqənin Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, digər rəsmilər, eləcə də birinci "Yüksəliş" müsabiqəsinin qaliblər iştirak ediblər.

*davamı səh. 3-də*

## Anar Kərimov peşə bayramı ərəfəsində media nümayəndələri ilə görüşdü

22 iyul ölkəmizdə Milli Mətbuat Günü – media işçilərinin peşə bayramıdır. Bu münasibətlə iyulun 19-da mədəniyyət naziri Anar Kərimovun Beynəlxalq Muğam Mərkəzində media nümayəndələri ilə görüşü keçirildi.

Nazir bildirdi ki, müstəqilliyimizi bərpa edəndən bəri mətbuatımız ölkəmizdə baş verən hadisələri operativ, düzgün və dinamik şəkildə işıqlandırır. Rəqəmsal platformalar populyarlaşdıqca media daha da güc alır və ölkədə baş verən hadisələrə təsir etmək imkanı qazanır.

*səh. 3*

## Serbiya ilə mədəni əməkdaşlıq müzakirə olunub

Mədəniyyət naziri Anar Kərimov iyulun 19-da Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavlyeviçlə görüşüb.

Görüş zamanı ölkələrimizin tarixi irsini gələcək nəsillərə ötürməyin əhəmiyyətindən bəhs olunub. Arxeologiya və etnoqrafiya sahəsində birgə layihələrin həyata keçirilməsinin mümkünlüyü də müzakirə edilib.

*səh. 2*

## 29 il əvvəl gələn köç geri qayıdır...

İyulun 19-da Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsi başlanıb.

"Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsinə həsr edilmiş tədbir Abşeron rayonunun Masazır qəsəbəsi ərazisində məcburi köçkünlərin yaşayış kompleksində keçirilib. 10 ailədən ibarət ilk qrup Masazır qəsəbəsindəki "Zəngilan şəhərciyi"ndən Daxili İşlər Nazirliyi əməkdaşlarının müşayiəti ilə öz doğma yurd-yuvalarına yola salınıb. İlk mərhələdə ümumilikdə 41 ailə yenidən qurulan Ağalı kəndinə köçəcək.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev və Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənov mərasimdə iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Zəngilan rayonunun Ağalı kəndinə köçlə bağlı məlumat yayıb.




Məlumatda vurğulanır ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən məcburi köçkün həmvətənlərimizin doğma yurda qayıdışına imkan yaradıb. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk qədəmləridir. İşğala qədər bu inzibati ərazi 3 kəndi (1-ci, 2-ci və 3-cü Ağalı kəndləri) birləşdirib.

*davamı səh. 2-də*

## Milli kulinariyamız "National Geographic Traveller" festivalında



Azərbaycan Turizm Bürosu və milli aşpazlardan ibarət nümayəndə heyəti Londonda keçirilən "National Geographic Traveller" kulinariya festivalında iştirak edib. Festival çərçivəsində milli mətbəximizin incilərinin nümayiş etdirildiyi xüsusi ustad dərsi keçirilib.

*səh. 8*

## "İrsin idarəedilməsi bacarıqlarının inkişafı" proqramı üzrə üçüncü təlim yekunlaşıb

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin sifarişi və dəstəyi, Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının (AYSF) tərəfdaşlığı ilə "Qlobal Kommunikasiyalar və İnnovasiyalar" şirkəti tərəfindən 14-15 iyul tarixlərində "İrsin idarəedilməsi bacarıqlarının inkişafı" təlim proqramı çərçivəsində növbəti treninq keçirilib.

Sözügedən proqram üzrə sayca üçüncü təlim kursu UNESCO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" 2005-ci il Konvensiyasına həsr olunub.

Treninqin ikinci günü AYSF İdarə heyətinin sədri, proqramın rəhbəri Vasif Eyvazzadə mövzular və məruzə edəcək qonaqlar barədə məlumat verib.

Türkiyənin Ənənəvi İncəsənət Dərnəyinin (Geleneksel Sanatlar Derneği) rəhbəri Ahmet Akcan fəaliyyət istiqamətləri, həyata keçirdikləri layihələr, tərəfdaşlar, beynəlxalq səviyyədə icra olunan təşəbbüslər barədə iştirakçıları məlumatlandırıb. Məruzəçi Türkiyədə mədəniyyət sahəsində idarəetmədə dövlət-özəl, dövlət-vətəndaş cəmiyyəti tərəfdaşlığı nümunələrindən, ənənəvi sənətlərin qorunması və inkişafında aktiv fəaliyyət göstərən fond, dərnək, vətəndaş cəmiyyəti və üst qurum təşkilatlarının fəaliyyətindən bəhs edib, bu istiqamətdə Türkiyə-Azərbaycan əməkdaşlığının əhəmiyyətini qeyd edib.

*davamı səh. 7-də*

## Şuşa – bir teatr səhnəsi kimi...



XIX əsrin ortalarında Şuşanın mədəni həyatında bir canlanma duyulmaqda idi. Belə ki, 1848-ci ildə artıq Şuşada tamaşaların oynanılması üçün teatr və sirk səhnələri var idi. Bu fakt dövrün görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinin xatirələrində də öz əksini tapıb. Mənbələrdən məlum olur ki, Şuşa ziyalıları vaxtaşırı tamaşalar oynayır, ədəbi məclislər qurur, o zamanlar Cənubi Qafqazın mədəni mərkəzi olan Tiflisdəki mütərəqqi düşüncəli maarifçi ziyalılarla sıx əlaqə saxlayırdılar.

*səh. 6*

"Mədəniyyət kəndlərdə" layihəsi davam edir



*səh. 4*

Mədəniyyət naziri "ArtCamp Shusha" beynəlxalq layihəsində iştirak edən rəssamların əsərləri ilə tanış olub

*səh. 3*



Natəvan haqqında film çəkilir

*səh. 6*

№53 (1926)
20 iyul 2022
www.medeniyyet.az

# Avropa İttifaqı Azərbaycanla tərəfdaşlığa xüsusi önəm verir

## "Hazırda yeni ikitərəfli saziş üzərində çalışırıq və ümid edirik ki, iş tezliklə yekunlaşacaq"

*əvvəli səh. 1-də*

Xanım Ursula fon der Lyayen ilə görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında gündəlikdə duran bütün məsələlərin əhatə edildiyini deyən dövlət başçısı diqqətə çatdırıb ki, enerji sahəsində apardığımız fəal əməkdaşlığın 15 ildən artıq tarixi var. 2006-cı ildə bu sahədə anlaşma memorandumu, 2011-ci ildə Cənub Qaz Dəhlizi ilə bağlı birgə bəyannamə imzalanıb.

"Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir. Biz neft hasilatı ilə başladıq. Sonra qaz hasilatına keçdik. Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərini çəkdik. Əlbəttə ki, 3500 kilometr uzunluğu olan Cənub Qaz Dəhlizi boru kəməri sistemlərini inteqrasiya etdi və bununla təbii qazımız Avropa qitəsinə çatdırılır. İki ildən az müddətdə Cənub Qaz Dəhlizi tam gücü ilə işləyir. Bütün seqmentlər istismar olunur. Biz bu əməkdaşlığın müsbət faydasını artıq görürük. Enerji təhlükəsizliyi məsələləri bu gün heç zaman olmadığı qədər vacibdir. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq, təbii ki, böyük nailiyyətdir", – deyə İlham Əliyev bildirib.

Prezident qeyd edib ki, Azərbaycanda bərpaolunan enerjinin istehsalı sahəsində böyük potensial da Avropa İttifaqı tərəfindən yüksək dəyərləndirilir. O cümlədən Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində günəş və külək enerjisinin potensialı 9200 meqavatdır: "Bir sözlə, bizim nəhəng resurs ehtiyatlarımız var. Bundan əlavə, əlbəttə ki, gələn illər ərzində istifadə edəcəyimiz yeni qaz yataqlarımız var. Bununla qazın hasilatını artıracağıq. Biz bərpaolunan enerjidən istifadə edərək ixrac üçün daha çox qazı təmin edəcəyik. Bu, səylərimiz sayəsində yaradılmış və Avropa İttifaqının dəstəklədiyi çox üstün vəziyyətdir...".



Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen bəyanatından öncə Azərbaycan rəhbərinə qətiyyət göstərərək Avropa İttifaqını dəstəklədiyinə görə minnətdarlığını ifadə edib. Bildirib ki, Rusiyanın Ukraynaya müdaxiləsindən əvvəl də Rusiyanın Avropaya qaz təchizatı etibarlı deyildi: "Buna görə Avropa İttifaqı Rusiyadan yan keçərək, daha etibarlı və etimad doğuran tərəfdaşlara üz tutmaq qərarına gəldi və mən Azərbaycanı onların sırasında hesab etməkdən məmnunam. İmzaladığımız anlaşma memorandumu bizim enerji tərəfdaşlığımızı daha da gücləndirir".

Xanım Lyayen qeyd edib ki, imzalanan memorandumla biz Cənub Qaz Dəhlizinin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük və Azərbaycandan təchiz edilən qazın həcmini ikiqat artıracağıq: "Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Biz bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracağıq. Gələn ildən biz 12 milyard kubmetr göstəriciyə çatacağıq, Avropanın təchizat təhlükəsizliyinə ciddi töhfə verəcəyik...".

Avropa Komissiyasının Prezidenti Azərbaycan rəhbəri ilə görüşdə enerjidən əlavə, əlaqələrin və əməkdaşlığın bütün aspektlərini müzakirə etdiklərini deyib. Bildirib ki, ikitərəfli əməkdaşlığın inkişafı bir gün sonra Brüsseldə Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Şurasının iclasında da müzakirə ediləcək: "Biz hazırda yeni ikitərəfli saziş üzərində çalışırıq və ümid edirik ki, iş tezliklə yekunlaşacaq. Onun məqsədi iqtisadi sahədə mövcud olan güclü tərəfdaşlığı genişləndirməkdir. Avropa İttifaqı Azərbaycanın ən iri ticarət tərəfdaşı və əsas ixrac bazarıdır".

Xanım fon der Lyayen qeyd edib ki, Avropa İttifaqı Azərbaycanla birgə çalışaraq Mərkəzi Asiya və onun hüdudlarından kənarda da əlaqələr qurmaq arzusundadır: "Biz mühüm Trans-Xəzər əlaqələrinə dair ideya və müzakirələri böyük maraqla izləyirik və müzakirələrin dərinləşdirilməsinə töhfə verəcəyik. Nəhayət, biz vahid hava məkanı haqqında sazişi yekunlaşdırmaq istəyirik. Çünki bu, biznes, ticarət və turizm imkanlarına böyük təkan verəcəkdir".

"Avropa İttifaqı Cənubi Qafqazın təhlükəsiz, sabit və firavan olmasına sadiqdir. Məsələn, biz bu ölkədə minalardan təmizləmə sahəsində ən böyük donoruq. Biz bu vacib mövzunu da müzakirə etdik. Biz bu məqsəd üçün 4.25 milyon avroluq yeni yardım paketini elan etdik. Bununla yanaşı, biz bu mühüm sahədə avadanlıq və təcrübə təklif edirik... Avropa İttifaqı Sizin regionla sıx bağlıdır. Biz tərəfdaşlığımıza dəyər veririk və bu tərəfdaşlıq zaman keçdikcə ardıcıl şəkildə daha da inkişaf edəcək və dərinləşəcək", – deyə Avropa Komissiyasının rəhbəri bildirib.

***

Qeyd edək ki, iyulun 19-da Brüsseldə Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramovun və Avropa İttifaqının Xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrellin həmsədrliyi ilə Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 18-ci iclası keçirilib.

İclasdan sonra Cozep Borrell və Ceyhun Bayramov birgə mətbuata açıqlama veriblər.

"Biz hazırda Azərbaycanla yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların vacib mərhələsindəyik. Bu yeni saziş bizim əməkdaşlığımızı və siyasi dialoqumuzu daha da gücləndirəcək", – deyə Cozep Borrell bildirib.

Azərbaycan Avropa İttifaqı və regiondakın tərəfdaşları ilə Şərq Tərəfdaşlığının yenidən dizayn edilməsi üçün məsləhətləşmələrə töhfə verməyə hazırdır.

Bu fikri isə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib. Nazir əlavə edib ki, Aİ və Azərbaycan arasında yeni ikitərəfli razılaşma təşkilatın 9 ölkəsi ilə qurulmuş strateji tərəfdaşlıq əlaqələrimizin ruhunu təcəssüm etdirməlidir. Razılaşma həm Azərbaycan, həm də Aİ üçün bir neçə üstünlüyü nəzərdə tutur. Ona görə də hər iki tərəf danışıqların sürətli şəkildə başa çatdırılmasında bərabər şəkildə maraqlı olmalıdır.



# Mədəniyyət Nazirliyində Serbiya səfiri ilə görüş

Mədəniyyət naziri Anar Kərimov iyulun 19-da Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavlyeviçlə görüşüb.

Qonağı salamlayan nazir ölkələrimiz arasında mövcud mədəni əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə inamını ifadə edib. Kitabxana, kinematoqrafiya, muzeyşünaslıq və digər humanitar sahələrdə təcrübə mübadiləsinin, həmçinin sərgilərin təşkilinin önəmi vurğulanıb.

Anar Kərimov Mədəniyyət Nazirliyi tərəfindən ötən il bəyan edilən "Mədəniyyət naminə sülh" (Peace for Culture) qlobal çağırışının əhəmiyyətindən də bəhs edib. Bildirib ki, bu kampaniya çərçivəsində də Serbiya Respublikası ilə əməkdaşlığa hazırıq.

Səfir qeyd edib ki, gerçəkləşdirilən birgə layihələr nəinki mədəni əlaqələrimizin, eləcə də xalqlarımızın yaxın münasibətinin göstəricisidir.

Görüş zamanı ölkələrimizin tarixi irsini gələcək nəsillərə ötürməyin əhəmiyyətindən bəhs edilib. Arxeologiya və etnoqrafiya sahəsində birgə layihələrin həyata keçirilməsinin mümkünlüyü də müzakirə olunub.

# Türk dünyasının ortaq dəyəri –
# Bayburtda Dədə Qorqud Festivalı

*əvvəli səh. 1-də*

Beş gün davam edəcək 26-cı Beynəlxalq Dədə Qorqud Mədəniyyət və Sənət Festivalının proqramına Türk dünyası ilə bağlı müxtəlif sərgilər də daxildir.

İyulun 19-da Bayburtun "Çoruh" Mədəniyyət Mərkəzində kitab və rəsm sərgiləri açılıb. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən qurulan sərgilərin açılışında Bayburtun rəhbər şəxsləri, festival iştirakçıları, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.





Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı TÜRKSOY-un fəaliyyəti, eləcə də Dədə Qorqud mövzusunda həyata keçirdiyi layihələr barədə geniş məlumat verib.

Sonra TÜRKSOY-un nəşri – tanınmış yazıçı və tərcüməçi Kenan Çarboğanın "Qorqudnamə" əsəri Bayburt Bələdiyyəsinin başqanı Hükmü Pekmezci, vali müavini Göksel Yüksel, eləcə də millət vəkillərinə təqdim olunub.

Azərbaycan da daxil olmaqla, Türk dünyasının görkəmli rəssamlarının Dədə Qorqud mövzusunda çəkdikləri əsərlər, eləcə də nəşrlər iyulun 23-dək nümayiş olunacaq.

Qeyd edək ki, Azərbaycan Prezidenti Heydər Əliyevin imzaladığı müvafiq fərmanla (20 aprel 1997-ci il) "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi 2000-ci ildə Bakıda türkdilli ölkələrin yüksək nümayəndə heyətlərinin iştirakı ilə təntənəli şəkildə qeyd edilib.

2018-ci ildə Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə təqdim etdiyi "Dədə Qorqud irsi: dastan mədəniyyəti, xalq nağılları və musiqisi" nominasiya faylı çoxmillətli mədəniyyət nümunəsi kimi UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Bayburtda iyulun 23-dək davam edəcək festival çərçivəsində təşkil olunacaq panel müzakirələrdə Azərbaycanda Dədə Qorqud irsinin öyrənilməsi, bu mövzuda yaradılan ekran əsərləri, nəşr olunan kitablar və sair barədə də məlumat veriləcək.

**Mehparə Sultanova**
**Ankara**

# 29 il əvvəl gələn köç geri qayıdır...

## Böyük Qayıdışın ilk maşın karvanı zəngilanlıları doğma yurda çatdırıb





*əvvəli səh. 1-də*

Yeni Ağalı kəndinə birinci mərhələdə köçürülən 41 ailə müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin hər birinin sakinləri var.

Evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları əsasında, şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma ilə aparılıb. Püşkatma bir müddət bundan əvvəl Dövlət Komitəsinin Repatriasiya departamentində keçirilib.

Köçürülən ailələrin hər bir üzvünə iş təklif olunub və təkliflər qəbul edilib. Təklifi qəbul etmiş şəxslər köçürülmədən sonra iş yerlərində rəsmi şəkildə qeydiyyata alınıb fəaliyyətə başlayacaqlar. Ağalıya köçürülən ilk sakinlər arasında təqaüdçü, tələbə, evdar qadınlar olmaqla yanaşı, mühəndis, satıcı-kassir, gözətçi, bağban, aqronom, müəllim, həkim, kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər və s. xidmət, səhiyyə və təhsil sahələri üzrə ixtisaslaşmış kadrlar vardır.

Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər.

29 il sürən həsrətdən sonra Ağalı sakinləri iyulun 19-da günün ikinci yarısında doğma torpaqlarına qovuşublar.

Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev Ağalı sakinlərini salamlayıb.

Sakinlərə "Azercell"dən hədiyyələr və "Rahat" marketdən 100 manatlıq kuponlar təqdim edilib.

Daha sonra Ağalı sakinlərinin ailə başçılarına evlərinin açarları verilib. Kənd sakinləri evləri ilə tanış olublar.







"Ağalı kəndi artıq öz doğma sakinlərini qəbul edir. Evlər, məktəb, uşaq bağçası – burada yaşayış üçün lazım olan bütün infrastruktur hazırdır. Sakinlər üçün iş yerləri mövcuddur. Bundan sonra da sakinlərə bütün zəruri dəstək göstəriləcək", – deyə Vahid Hacıyev jurnalistlərə açıqlamasında bildirib.

Zəngilanın digər kəndlərinin də layihələrinin hazırlandığını deyən V.Hacıyev rayonda hərtərəfli bərpa və yenidənqurma işlərinin həyata keçirildiyini bildirib.

Böyük Qayıdışın ilk iştirakçıları olmaqdan qürur duyduğunu bildirən Ağalı kənd sakini Möhtubbət Səmədov deyib ki, sevincimizin həddi-hüdudu yoxdur. Kənd camaatı ilə birlikdə doğma yurdumuza qayıtmışıq. Bu qayıdışın ardı gələcək, bütün məcburi köçkünlərimizin torpaq həsrəti sona yetəcək: "Otuz il idi sanki yaşamırdım. Bu gündən həyatımı yenidən yaşamağa başlamışam. Bu sevinci bizə yaşadanlara – Ali Baş Komandan İlham Əliyev başda olmaqla Ordumuza minnətdaram. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin".

Kənd sakini Vəliyəddin Paşayev: "Zəngilan rayonunun Ağalı kəndində doğulub boya-başa çatmışam. Kəndimizi tərk edəndə 32 yaşım var idi. Şükür Allaha, 2020-ci ilin payızında 44 gün ərzində rəşadətli Azərbaycan Ordusu ərazi bütövlüyümüzü bərpa etdi. Əhd etmişdim ki, torpaqlarımız alınanda bərpa işlərində mən də iştirak edəcəyəm. Əhdimə sadiq qaldım. Bir il üç aydır ki, Ağalıda işləyirəm. Buranı ilk dəfə görəndə dəhşətə gəldim. Erməni vandalları kəndimizi xarabalığa çevirmişdilər. İndi isə Ağalı kəndi gülüstana çevrilib".

Ağalı kənd sakini Minə Mirzəyeva bu günün ağalılılar üçün əlamətdar gün olduğunu deyib: "Neçə ildir doğma rayonumuzun, kəndimizin həsrətini çəkir, ürəyimizin hər döyüntüsündə uzaqlığın ağrısını hiss edirdik. Ağalı kəndinin sakinləri çox şanslıdırlar. Çünki ilk olaraq onların nisgilinə son qoyuldu".

Xatırladaq ki, bu il mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir.

Kənddə ailə-sağlamlıq mərkəzi, uşaq bağçası, tam orta məktəb də sakinlərin istifadəsində olacaq.

Qeyd edək ki, 1993-cü ilin oktyabrında Zəngilan rayonu işğal edilənə qədər Birinci Ağalı kəndində 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

# Medianın mədəniyyət sahəsinə diqqətini və həssas münasibətini təqdir edirik

## Mədəniyyət naziri peşə bayramı ərəfəsində media nümayəndələri ilə görüşdü

22 iyul ölkəmizdə Milli Mətbuat Günü – media işçilərinin peşə bayramıdır. Bu münasibətlə iyulun 19-da mədəniyyət naziri Anar Kərimovun Beynəlxalq Muğam Mərkəzində media nümayəndələri ilə görüşü keçirildi.

Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə tədbiri giriş sözü ilə açaraq iştirakçıları qarşıdan gələn Milli Mətbuat Günü münasibətilə təbrik etdi. Bildirdi ki, Mədəniyyət Nazirliyi media ilə əməkdaşlığa hər zaman xüsusi önəm verir. Təqdirəlayiq haldır ki, ölkəmizin işğaldan azad olunan ərazilərində mədəniyyətin dirçəlməsi ilə bağlı nazirlik tərəfindən həyata keçirilən layihələr də mətbuatımızda işıqlandırılır: "Bu layihələrin əsas məqsədi Qarabağın tarixən mövcud olmuş zəngin mədəni irsini bərpa etmək, mədəniyyətimizi yenidən bu torpaqlara qaytarmaqdır. Bugünkü görüşdə sizlərin bu mövzuda fikir və təkliflərini dinləmək istəyirik. Ümid edirik ki, gələcəkdə bu əməkdaşlıq daha da genişlənəcək".



Mədəniyyət naziri Anar Kərimov çıxışında əvvəlcə kütləvi informasiya vasitələri mənsublarına Milli Mətbuat Günü münasibətilə xoş diləklərini çatdırdı. Qeyd etdi ki, media işçilərinin peşə bayramı ölkəmizdə ən əlamətdar günlərdən biridir: "Çünki hər inkişaf etmiş cəmiyyətin göstəricilərindən biri onun mətbuatının fəal və cərəyan edən proseslərə obyektiv münasibət bildirməsi ilə ölçülür. Biz fəxrlə deyə bilərik ki, müstəqilliyimizi bərpa edəndən bəri mətbuatımız ölkəmizdə baş verən hadisələri operativ, düzgün və dinamik şəkildə işıqlandırır. Rəqəmsal platformalar populyarlaşdıqca media daha da güc alır və ölkədə baş verən hadisələrə təsir etmək imkanı qazanır. Mətbuat hər zaman cəmiyyətin həm inkişafını, həm də nöqsanlarını ortaya çıxarır, bu və ya digər məsələnin həllində carçı rolunu oynayır. Ölkə mediasının mədəniyyət sahəsinə diqqətini, o cümlədən mövcud problemlərə həssas münasibətini də təqdir edirik".

Nazir Vətən müharibəsindəki şanlı Zəfərdən sonra informasiya müstəvisində savaşın, mübarizənin davam etdiyini bildirdi: "Mediamız informasiya müharibəsində Azərbaycan həqiqətlərini, həmçinin işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda dövlətimiz tərəfindən həyata keçirilən genişmiqyaslı quruculuq işlərini də geniş işıqlandırır, dünya ictimaiyyətinə çatdırır...".

Anar Kərimov Mədəniyyət Nazirliyinin işğaldan azad olunmuş ərazilərdə mədəni mühitin öyrənilməsi, tarixi-mədəni mirasın inventarlaşdırılması, tədqiqi və bərpası, bir sözlə, mədəniyyətimizin azad olunmuş ərazilərə qaytarılması istiqamətində davamlı fəaliyyət göstərdiyini diqqətə çatdırdı. Dedi ki, bu sahədə də media orqanları ilə uğurlu əməkdaşlıq qurulub.

Mədəniyyət Nazirliyi olaraq hər zaman Vətən müharibəsi şəhidlərinin ailələrinə və qazilərə həssaslıqla yanaşdıqlarını deyən Anar Kərimov bu sahədə müxtəlif layihələrin həyata keçirildiyini söylədi: "Bu həssaslığı biz layihələrimizlə göstərmişik. Nazirliyin "Səhnədən-səngərə: şəhidlər" və "Səhnədən-səngərə: qazilər" layihələri uğurla reallaşdırılıb. Layihə üzrə mədəniyyət sahəsində çalışmış şəhidlərimizin həyat hekayələri, onların ailə üzvləri, dostları, iş yoldaşlarının müsahibələrinin yer aldığı geniş videoçarxlar hazırlanaraq ictimaiyyətə təqdim edilib. Layihə çərçivəsində eyni zamanda qazilərimiz haqqında da belə videoçarxlar hazırlanıb. Media orqanlarımız sözügedən və digər layihələrimizi davamlı işıqlandırıblar. Bizim bundan sonra da, xüsusilə Qarabağın tarixi-mədəni irsi, ənənələri ilə bağlı çoxsaylı layihələrimiz olacaq. Məlum olduğu kimi Mədəniyyət Nazirliyi tərəfindən "Qarabağın tarixi" adlı qısa videoçarxlar müsabiqəsi elan edilib. Mən media nümayəndələrindən, blogerlərdən bu müsabiqədə fəallıq gözləyirəm. Əminəm ki, bu müsabiqə Qarabağın tarixini geniş ictimaiyyətə tanıtdırmaq üçün gözəl bir fürsət olacaq. "Şuşanın dörd fəsli", "ArtCamp Shusa" kimi layihələr də mediada geniş təbliğ ediləcək".

Nazirliyin "Azərbaycan – qədim sivilizasiyalar məskəni" adlı layihəsi haqqında məlumat verən Anar Kərimov layihə çərçivəsində bir neçə videoçarx hazırlandığını bildirdi: "Bu videoçarxlardan biri dünyanın ən qədim insan məskənlərindən, Xocavənd rayonunun işğaldan azad edilmiş ərazisində yerləşən Azıx mağarası haqqındadır. Bu layihənin televiziya və mətbuat vasitəsilə daha geniş təbliğ olunmasını istərdik. Əminəm ki, "Azərbaycan – qədim sivilizasiyalar məskəni" layihəsi həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə qədim tarixi mirasımızın təbliğinə töhfə olacaq".

Nazir çıxışının sonunda bir daha media nümayəndələrini qarşıdan gələn peşə bayramı münasibətilə təbrik etdi, bu sahədə çalışan hər kəsə uğurlar arzuladı.

Sonda Anar Kərimov media nümayəndələrinin müxtəlif məsələlərlə bağlı fikir və təkliflərini dinlədi, bir sıra mövzulara dair öz mülahizələrini bölüşdü.

**Nurəddin Məmmədli**

əvvəli səh. 1-də

# "Yüksəliş"lə irəli gedənlər

## İkinci dəfə təşkil olunan müsabiqənin finalında 22 nəfər qalib adını qazanıb

Panel müzakirələrinin birinci hissəsi Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Rövşən Nəcəf, ikinci hissəsi isə, "PAŞA Holdinq"in baş icraçı direktoru Cəlal Qasımov, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov tərəfindən aparılıb.





İdarəçi rəhbərlər çıxışlarında "Yüksəliş" müsabiqəsinin yeni nəsil idarəçilərini, liderlik müstəvisində proqressiv düşüncə, çevik idarəçilik bacarıqlarına malik peşəkarları aşkara çıxarmaqda, onların potensialını lazımi sahələrə yönləndirməkdə, eyni zamanda peşəkar kadrların dəyərləndirilməsi və dəstəklənməsi baxımından ölkəmiz üçün əhəmiyyətli layihə olduğunu vurğulayıblar.

Qeyd edilib ki, "Müasir çağırışlar və insan kapitalının formalaşması" mövzusunun gündəmə gətirilməsinin əsas məqsədi müsabiqənin finalçılarına peşəkar idarəçilərin təcrübələrini dinləmək imkanı yaratmaq, idarəetmə sistemində yeni yanaşmaların, səmərəli insan kapitalının yetişdirilməsinin əhəmiyyətini diqqətə çatdırmaqdır.

Finala müsabiqənin əvvəlki dörd mərhələsini uğurla başa vuran 116 nəfər iştirakçı vəsiqə qazanıb. İştirakçıların 8 səriştəsi (strateji düşünmək bacarığı, nəticələrə yönəlmək bacarığı, komandada işləmək bacarığı, kommunikasiya bacarıqları, dəyişikliklərin və innovasiyaların idarə edilməsi, liderlik, sosial məsuliyyət və effektivliyin idarə edilməsi) ekspertlər tərəfindən qiymətləndirilib. Keyslər müasir dünya təcrübəsi əsasında və qabaqcıl format üzərində hazırlanıb, Azərbaycanın iqtisadiyyatı, sosial, insan resursları və yenidənqurma sahələrini ehtiva edir.

"Yüksəliş" müsabiqəsinin final mərhələsi iyulun 17-də başa çatıb.

İştirakçılar Təşkilat Komitəsinin üzvləri və idarəçi rəhbərlərin müşahidəsi ilə fərqli keyslər üzrə tapşırıqları yerinə yetiriblər. İdarəçi rəhbərlərin suallarına cavab verən iştirakçılar keys üzrə təqdimatdan sonra idarəçi rəhbərlər tərəfindən qiymətləndiriliblər.

Hər masaya təyin edilmiş mentor komandada öz səriştəsi ilə seçilən bir finalçıya qiymətləndirmə balı təqdim edilib. Təqdim edilən mentor balı iştirakçıların ümumi balına əlavə ediləcək.

Final mərhələsinin sonuncu günündə müsabiqənin Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, xarici işlər naziri Ceyhun Bayramov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, təhsil naziri Emin Əmrullayev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, kənd təsərrüfatı naziri İnam Kərimov, mədəniyyət naziri Anar Kərimov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Təşkilat Komitəsinin digər üzvləri və idarəçi rəhbərlər iştirak ediblər.

İyulun 19-da ikinci "Yüksəliş" müsabiqəsinin nəticələri elan edilib. Bildirilib ki, müsabiqənin üç gün sürən finalında iştirak edən 116 namizəddən 22 nəfəri qalib adını qazanıb. Onlar müsabiqəyə müraciət edən 12 min 299 nəfər arasından bilikləri, idarəçilik bacarıqları və səriştələri ilə fərqlənən şəxslərdir. Qaliblərdən 5-i xanımdır. 10 qalib birinci müsabiqənin müxtəlif mərhələlərində iştirak edib. Ən gənc qalibin 23, ən yaşlı qalibin isə 37 yaşı var.

Müsabiqənin yarımfinal və final mərhələləri "qiymətləndirmə konfransı" (assessment conference) formatında keçirilib. Bu təcrübə ABŞ, Rusiya, Avropa ölkələrində geniş yayılıb və böyük sayda insanların potensialını qiymətləndirmək üçün istifadə olunur. Sözügedən mərhələlərdə strateji düşünmək bacarığı, nəticələrə yönəlmək bacarığı, komandada işləmək bacarığı, kommunikasiya bacarığı, dəyişikliklərin və innovasiyaların idarə edilməsi, liderlik, sosial məsuliyyət və effektivliyin idarə edilməsi səriştələri əsasında ekspertlər tərəfindən qiymətləndirmə aparılıb.

Qaliblərin adları ictimaiyyətə yaxın günlərdə açıqlanacaq. Qaliblərin adı kadr ehtiyatı bankına daxil edilməklə yanaşı, onlar idarəçi rəhbərlər tərəfindən 1 illik fərdi inkişaf planı (https://yukselish.az/mentors.html) və hər biri 20 min AZN məbləğində özünüinkişaf mükafatı əldə edəcək.

# Nazir "ArtCamp Shusha" layihəsi iştirakçılarının əsərləri ilə tanış olub

Mədəniyyət naziri Anar Kərimov "Şuşa İli" çərçivəsində reallaşan "ArtCamp Shusha" beynəlxalq layihəsində iştirak edən xarici və yerli rəssamların çəkdikləri əsərlərlə tanış olub.



Layihə Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilir. Bununla əlaqədar İtaliya, Almaniya, Rumıniya, Danimarka və Türkiyədən olan xarici rəssamlar, eləcə də onların azərbaycanlı həmkarları Şuşa şəhərinə səfər edib, burada mövcud olan tarixi abidələrimiz və şəhərdə aparılan bərpa-quruculuq işləri ilə yaxından tanış olublar.

Bakıya qayıdan rəssamlar Şuşa barədə təəssüratlarını tərənnüm edən əsərlər çəkməyə başlayıblar.

Mədəniyyət naziri layihədə iştirak edən rəssamların əl işlərinə baxıb. Rəssamların Şuşa barədə təəssüratlarını dinləyən Anar Kərimov rəsm əsərlərinin nazirlik tərəfindən təşkil olunacaq sərgidə nümayiş etdiriləcəyini bildirib.

# Nəşriyyat və kitabxana işini necə təşviq etməli?

Azərbaycan Nəşriyyatları Assosiasiyası İctimai Birliyi (ANAİB) Milli Mətbuat Günü münasibətilə iyulun 19-da media nümayəndələri ilə görüş keçirib.




Tədbiri giriş sözü ilə açan ANAİB-in sədri Şamil Sadiq birliyin yarandığı vaxtdan ötən 2 ildə fəaliyyəti barədə məlumat verib. Birliyin koordinatoru Fizzə Məmmədova il ərzində keçirilən kitab sərgiləri, oxu günləri və digər təşkilati fəaliyyətlərin slaydını təqdim edib.

Görüşdə çıxış edən Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli nazirliyin kitab siyasətindən söz açıb. Bildirib ki, ötən il nazirlik 105 min, bu il isə 500 min manatlıq kitabı müəllif və naşirlərdən alıb.

Şöbə müdiri həmçinin qeyd edib ki, nazir Anar Kərimovun təşəbbüsü ilə müvafiq ixtisaslı məzunlar təyinatla ölkə kitabxanalarına göndərilir. Bakı Dövlət Universitetinin, Mədəniyyət və İncəsənət Universitetinin kitabxanaçılıq ixtisası üzrə məzunlarının təyinatla kitabxanalara göndərilməsi ölkədə həm də kitaba olan münasibətə yaxşı mənada təsir edir.

ANAİB-in sədr müavini Nurman Tariq çıxışı zamanı birliyin oxucular arasında keçirdiyi statistikanı təqdim edib. Statistikaya əsasən, oxucuların rusdilli və türkdilli ədəbiyyata maraqları diqqət çəkib.

Daha sonra görüş iştirakçıları müxtəlif təkliflərlə çıxış ediblər. Sonra media nümayəndələrinin sualları cavablandırılıb.

# Almatıda MDB ölkələri arxiv xidməti rəhbərlərinin iclası keçirilib

Qazaxıstanın Almatı şəhərində MDB-yə üzv ölkələrin dövlət arxiv xidməti rəhbərləri Məsləhət Şurasının 18-ci iclası keçirilib.

İclasda ölkəmizi Milli Arxiv İdarəsi Sənədlərin nəşri və istifadəsi şöbəsinin müdiri, İnformasiya təminatı və elektron xidmətlər mərkəzinin rəhbəri Natiq Eminov təmsil edib.

Milli Arxiv İdarəsindən bildirilib ki, nümayəndə heyətləri əvvəlcə Qazaxıstan Respublikası tarixinin müxtəlif mərhələlərini özündə əks etdirən arxiv sənədlərindən ibarət sərgi ilə tanış olublar.

Rotasiya qaydasında Qazaxıstanın sədrliyi ilə təşkil olunan iclasda 2021-ci il və 2022-ci ilin altı ayı ərzində MDB ölkələri arxiv xidməti təşkilatlarının fəaliyyəti haqqında ümumi analitik təhlil dinlənilib, sözügedən mövzu ətrafında müvafiq ölkələrin arxiv xidməti rəhbərləri və nümayəndələri təmsil etdikləri ölkələr üzrə arxiv xidməti sahəsində görülmüş işlər barədə məruzə ilə çıxış ediblər.

Arxiv işi sahəsində normativ-hüquqi sənədlərin qəbul edilməsi, elektron xidmətlərin tətbiqi, informasiya sistemlərinin hazırlanması, beynəlxalq əlaqələr, arxivlərin maddi-texniki təchizatı haqqında müzakirələr aparılıb.

Gündəlikdə duran digər məsələlər barədə də aidiyyəti üzrə fikir mübadiləsi aparılaraq müvafiq qərarlar qəbul olunub.

MDB-yə üzv ölkələrin dövlət arxiv xidməti rəhbərlərinin Məsləhət Şurasına növbəti birillik müddətə Özbəkistan Respublikasının "Uzarxiv" agentliyinin rəhbəri Uluqbek Yusupov sədr seçilib. Şuranın 19-cu iclasının 2023-cü ilin sentyabr ayında Özbəkistanın Səmərqənd şəhərində keçirilməsi qərara alınıb.




İclas iştirakçıları Qazaxıstan Dövlət Arxivində, Dövlət Kino-Foto və Fono Sənədləri Arxivində, Dövlət Elm və Texnika Sənədləri Arxivində, o cümlədən Qazaxıstan Respublikası Prezidentinin Arxivində yaradılmış şəraitlə tanış olublar.

# Tariximizdə yeni dövrün başlanğıcı




Bölgələrdəki mədəniyyət müəssisələrində ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin (1969-cu il 14 iyul) 53-cü ildönümü münasibətilə müxtəlif tədbirlər keçirilib.

Ağdaş Regional Mədəniyyət İdarəsi (RMİ) Ağdaş rayon Mərkəzi Kitabxanasının oxu zalında "Müstəqil Azərbaycanın təməl tarixi" adlı tədbir keçirilib. Tədbirdə "Yeni tarixin başlanğıcı" adlı videoçarx nümayiş olunub.

***

Masallı RMİ Masallı rayon Mərkəzi Kitabxanasında "Dahi və bənzərsiz lider" mövzusunda tədbir keçirilib. Tədbirdə kitabxananın direktoru Əlhəddin Nəzərov çıxış edib. Ulu öndərin Azərbaycan xalqı və dövlətçiliyi qarşısında misilsiz xidmətlərindən danışıb.

***

Ağstafa RMİ Ağstafa rayon Heydər Əliyev Mərkəzində "1969-cu ilin 14 iyulu: Azərbaycanın özünə qayıdışının, dirçəliş və inkişaf yolunun başlanğıcı" mövzusunda tədbir keçirilib. Tədbirdə ulu öndərə həsr olunmuş film nümayiş olunub.

***

İsmayıllı RMİ və Şamaxı rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Azərbaycanın Heydər Əliyev dövrü: qüdrətli dövlət, güclü xalq, davamlı inkişaf" adlı elmi-praktik konfrans keçirilib. İlk olaraq Heydər Əliyevin həyat və siyasi fəaliyyətini əks etdirən kitablardan və fotoşəkillərdən ibarət sərgiyə baxış keçirilib. Konfransda İsmayıllı RMİ-nin rəisi Elçin Nəcəfov, Şamaxı rayon Heydər Əliyev Mərkəzinin direktoru Könül Eyvazova, AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, dosent Sübhan Talıblı və digərləri çıxış ediblər.





***

Şəki RMİ Balakən rayon Heydər Əliyev Mərkəzi, rayon İcra Hakimiyyəti və YAP Balakən rayon təşkilatının birgə təşkilatçılığı ilə tədbir keçirilib. Tədbirdə YAP Balakən rayon təşkilatının sədri Azad Balayev, rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nəzakət Rüstəmova və həmin şöbənin müdir müavini Fariz Nəcəfov, Balakən Heydər Əliyev Mərkəzinin direktoru Ləman Balayeva çıxış ediblər.

# "Yurdun sinəsində ürəkmiş Şuşa"

Gəncə RMİ Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı "Şuşa İli" ilə bağlı "Yurdun sinəsində ürəkmiş Şuşa" adlı şeir gecəsi keçirib. Çıxış edənlər hazırda Şuşa şəhərində dövlətimiz tərəfindən həyata keçirilən genişmiqyaslı quruculuq-abadlıq işlərindən danışıblar.

***



Lənkəran RMİ Astara rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Hamoşam kəndində "Şuşa İli"nə həsr olunmuş tədbir keçirilib. Tədbirdə mərkəzin instrumental ansamblının müşayiəti ilə uşaqların ifasında milli rəqslər nümayiş etdirilib.

Astara Dövlət Rəsm Qalereyasında "Şuşa İli" münasibətilə yeniyetmə və gənclər arasında rəsm üzrə rayon müsabiqəsi keçirilib. Rayonun ümumtəhsil məktəblərini və Astara Dövlət Rəsm Qalereyasını təmsil edən 41 gənc rəssamın qatıldığı müsabiqədə Səncərədi kənd tam orta məktəbinin şagirdi Filiz Həbibzadə qalib olub. Rəssamlardan Əmir Əliyev II, Şüvi kənd tam orta məktəbinin şagirdi Aysun Əliyeva III yerə layiq görülüb.

# "Mədəniyyət kəndlərdə" layihəsi davam edir

Masallı RMİ-nin təşəbbüsü və dəstəyi ilə həyata keçirilən "Mədəniyyət kəndlərdə" mədəniyyət-yaradıcılıq layihəsi davam edir.

Layihə üzrə növbəti tədbir Masallı rayonunun Şərəfə kəndində təşkil edilib. Əvvəlcə kənddə yerləşən Şəhidlər abidə-kompleksinin önünə gül dəstələri qoyulub, sonra Birinci Qarabağ və 44 günlük Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov layihənin məqsədlərindən danışıb. Kənd ziyalısı Fariz Əsgərov Şərəfənin tarixi barədə qısa arayış verib.

Tədbir Masallı rayon Mədəniyyət Mərkəzi incəsənət ustalarının ifasında konsert proqramı ilə davam edib. "Halay" və "Həcər" folklor kollektivlərinin çıxışları tədbirə rəng qatıb. Eyni zamanda tədbirdə məktəblilər və məktəbəqədər təhsil müəssisələrinin balaca fidanları tərəfindən rəqslər ifa edilib, vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib. Yeniyetmə idmançılar isə nümunəvi idman nömrələri göstəriblər.

Yekunda tədbirlərdə aktiv iştirak edən mədəniyyət işçiləri və məktəblilərə regional idarənin təşəkkürnaməsi təqdim edilib.

# Gəncədə Türkiyənin Demokratiya və Milli Birlik Günü qeyd olunub

Türkiyənin Gəncədəki Baş Konsulluğunda 15 İyul – Demokratiya və Milli Birlik Günü ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Gürcüstanın Gəncədəki baş konsulu Nikoloz İaşvili, idarə, müəssisə, təşkilat rəhbərləri və bağça qonaqlar iştirak ediblər.

Niyazi Bayramov, Zeki Öztürk, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Həsən Məmmədov çıxış edərək 2016-cı ilin 15 iyulunda Türkiyədə dövlət çevrilişinə edilən cəhd və xalqla dövlətin birliyi sayəsində bunun qarşısının alınmasından danışıblar.

Çıxışlardan sonra şəhidlərin xatirəsinə dualar oxunub, Türkiyənin Demokratiya və Milli Birlik Günü ilə bağlı videoçarx nümayiş olunub.

**Hazırladı: N.Məmmədli**

# Vətəni canından əziz bilənlər unudulmur



Xaçmaz rayonunun Şərifoba kəndində torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Rəvan Şahmuradovun xatirəsinə abidə-bulaq kompleksi istifadəyə verilib.

Rəvan Dilşad oğlu Şahmuradov 1999-cu il iyulun 14-də Şərifoba kəndində dünyaya göz açıb. Cəsur topçu Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb. Füzuli, Cəbrayıl istiqamətindəki döyüş mövqelərinin düşməndən azad olunmasında fəal iştirak edib. Döyüşlərin birində Rəvan dəqiq top atəşi ilə düşmənin canlı qüvvə və silah-sursat daşıyan avtomobil karvanını darmadağın etməyi bacarıb. Qəhrəman döyüşçü sentyabrın 29-da Füzuli istiqamətindəki döyüşlərdə ağır yaralanıb, həkimlərin səyinə baxmayaraq, şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", Füzuli, Cəbrayıl və Zəngilanın azad olunmasına görə medalları ilə təltif olunub.

***

Tərtər rayonunun Ələsgərli kəndində Vətən müharibəsi şəhidi Ruslan Şahbazovun xatirəsinə hazırlanmış abidənin açılışı olub. Ruslan sentyabrın 29-da Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olub. Dövlət başçısının sərəncamı ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

***

Ağdaş RMİ Göyçay rayon MKS-nin Mərkəzi Kitabxanasında "Azərbaycan Ordusunun qəhrəman oğlu Vidadi Xəlilov – 40" adlı tədbir keçirilib. Vətən müharibəsinin şəhid polkovnik-leytenantı Vidadi Xəlilovun anım günü münasibətilə reallaşan tədbirdə qəhrəman döyüşçüyə həsr olunmuş sərgi nümayiş etdirilib.

***



Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova və regional idarənin əməkdaşları II Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış Xudayar Yusifzadənin doğum günündə xatirəsini anıblar. Tədbirdə çıxış edən Vəsilə Möhsümova şəhidin ailəsinə başsağlığı verərək, Xudayarın keçdiyi döyüş yolundan, vətənpərvərliyindən, öz mələhətli ifası ilə dillərdə dastana dönməsindən danışıb.

***



Sumqayıt RMİ-nin Qubadlı rayon nümayəndəliyi tərəfindən Vətən müharibəsinin şəhid mayoru Elçin Alıyevin anım mərasimi keçirilib. Mərasimdə Mədəniyyət evinin hazırladığı kompozisiya nümayiş olunub, şeirlər söylənilib.

Xızı rayon nümayəndəliyinin təşkilatçılığı ilə Qarabağ müharibəsi şəhidlərinə həsr olunan "Şəhidlər doğuldu ki, yaşasın ana Vətən!" adlı tədbir keçirilib. Tədbirdə Sumqayıt RMİ-nin Xızı rayon nümayəndəliyinin baş məsləhətçisi Mönsüm Bağırov, Vətən müharibəsi qazisi Kamran Baxışzadə və digərləri çıxış ediblər. Xızı rayon Mərkəzi Kitabxanasının məktəblilərlə birgə hazırladığı vətənpərvər ruhunda şeirlərdən və şəhidlər haqqında məlumatlardan ibarət ədəbi-bədii kompozisiya maraqla qarşılanıb. Sonda tədbir iştirakçıları şəhidlərin şəxsi əşyaları, foto və medallarından ibarət sərgiyə baxıblar.

# Maarifləndirici tədbir, görüşlər, yubileylər...



Sabirabad RMİ yanında fəaliyyət göstərən şuranın növbəti iclası keçirilib. İdarə rəisi Fərid Qurbanzadə çıxışında mədəniyyət naziri Anar Kərimov tərəfindən verilən tapşırıq və tövsiyələri diqqətə çatdırıb.

Bildirib ki, informasiya məkanında, eləcə də sosial mediada aktivliyin artırılması, dərnəklərin fəaliyyətinin bərpa olunması, uşaq musiqi məktəblərində tədrisin keyfiyyətinin yaxşılaşdırılması, kadr potensialının inkişafı və əmək intizamının gücləndirilməsi, sənədləşmə işinin düzgün həyata keçirilməsi, yaradıcı gənclərin dəstəklənməsi, yeni layihələrlə regionun mədəni mühitinin canlandırılması diqqətdə saxlanılmalıdır.

***

Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin Uşaq şöbəsində həkim, yazıçı, ictimai xadim Tağı Şahbazi Simurqun (1892-1938) 130 illiyi ilə əlaqədar tədbir keçirilib.

***

Şəmkir RMİ Daşkəsən rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində uşaqları mütaliəyə cəlb etmək, kitaba marağı artırmaq üçün "Uşaq həyatında mütaliənin rolu" adlı tədbir keçirilib.

***

Gəncə RMİ Naftalan şəhər Heydər Əliyev Mərkəzində keçirilən Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş tədbirdə şairənin həyatından bəhs edən film izlənilib.

***



Ağstafa RMİ Qazax Dövlət Rəsm Qalereyasının dərnək üzvləri rəssam Yusif Əliyevin rəhbərliyi ilə təbiət qoynunda etüd hazırlayıblar. Uşaqlar yay tətilini səmərəli keçirməsi üçün "Mənim yay tətilim" adlı sərgiyə hazırlıq məqsədilə təbiətin görməli yerlərindən etüd işləyiblər.

***



Biləsuvar RMİ-nin rəisi Əlisultan Sadıxov Neftçala rayon Heydər Əliyev Mərkəzində mədəniyyət işçiləri ilə görüşüb. Görüşdə mədəniyyət sahəsində aparılan islahatlar, qarşıda duran vəzifələr, əmək intizamı qaydalarına ciddi riayət olunması, tədbirlərin keyfiyyətinin artırılması, sosial şəbəkədə aktivlik, nöqsanların aradan qaldırılması və s. məsələlər müzakirə edilib.

***

Şəki RMİ Şəki rayon Qudula kənd Folklor klubunda görkəmli şairə, xeyriyyəçi Xurşidbanu Natəvanın (1832-1897) 190 illiyinə həsr olunmuş "Xan qızı" mövzusunda ədəbi-bədii kompozisiya təşkil edilib.

***

Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov "Vətəni tanı!" silsilə tədbirləri çərçivəsində lənkəranlı gənclərlə görüşüb. Görüş zamanı bu il şəhərdə mədəniyyət sahəsində görülmüş işlərdən və qazanılmış uğurlardan, gələcək planlardan danışılıb.

# Eramızdan əvvəl VI-IV minilliklərdən üzü bu yana...

## Ağdam, Ağcabədi və Gədəbəydə arxeoloji tədqiqatlar



AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu ilə Almaniya Arxeologiya İnstitutu arasında bağlanmış müqaviləyə əsasən, Ağdam və Ağcabədi rayonları ərazisində birgə ekspedisiya həyata keçirilir. İnstitutun baş direktoru, tarix elmləri doktoru, professor Abbas Seyidov bu günlərdə arxeoloji qazıntı işləri aparılan sahəyə baş çəkib.

İnstitutdan bildirilib ki, ekspedisiyanın məqsədi Qarabağ düzənliyində eramızdan əvvəl VI-IV minilliklərə aid yaşayış məskənlərində arxeoloji tədqiqatların səmərəliliyinə nail olmaqdır.

Baş direktor ilk olaraq Ağdam rayonunun Eyvazlı kəndi ərazisində 1984-1990-cı illərdə mərhum arxeoloq, AMEA-nın müxbir üzvü İdeal Nərimanovun tədqiq etdiyi Leylatəpə abidəsində bu gün müasir üsullarla aparılan qazıntı işləri ilə tanış olub.

Almaniya tərəfindən ekspedisiyanın rəhbəri Mark İserlis qazıntılar haqqında məlumat verib.

Azərbaycan tərəfdən ekspedisiyanın rəhbəri, tarix üzrə fəlsəfə doktoru, dosent Xəqani Alməmmədov bu il eyni mədəniyyətə aid 13 abidəyə baxış keçirildiyini, dronla çəkilişlər, topoqrafik işlər aparıldığını, 3D modellərinin hazırlandığını bildirib.

İkinci baxış yeri Ağcabədi rayonunun Sarıcalı kəndi ərazisində yerləşən Canavartəpə arxeoloji abidəsi olub. Qazıntı işləri və maddi mədəniyyət nümunələri ilə yaxından tanış olan baş direktor arxeoloqlarla fikir mübadiləsi aparıb və onlara işlərində uğurlar arzulayıb.

***

Gədəbəy rayonu ərazisindəki "Qız qalası" və ya yerli əhali tərəfindən "Namərd qala" adlanan abidədə arxeoloji qazıntı işləri aparılır. Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru Abbas Seyidov institutun əməkdaşı, dosent Tükəzban Alıyeva tərəfindən aparılan arxeoloji tədqiqatlarla tanış olub.



Bildirilib ki, rayonun Söyüdlü kəndi yaxınlığında yerləşən abidə çətin çıxılan dağ üzərində, ətrafı meşələrlə örtülü olan, füsunkar gözəlliyə malik ərazidə yerləşir. İlkin araşdırmalara və memarlıq xüsusiyyətlərinə görə abidənin tikintisi XII əsrə – Azərbaycan Atabəyləri dövlətinin mövcud olduğu dövrə aid edilir. Qala divarları iri sal daşlar üzərində bişmiş kərpicdən istifadə edilməklə, çox möhtəşəm quruluşa malikdir.

Abidənin tədqiqatçısı Tükəzban Alıyeva məlumat verib ki, qalada yerləşən otaqlardan birində 1,2-1,4 metr dərinlikdə torpaq qatı təmizləndikdən sonra otağın içərisindən biri-birinə əks istiqamətdə iki yolun olduğu müəyyən edilib. İndi burada qazıntı işləri və yolların təmizlənməsi işləri aparılır.

Qeyd edək ki, "Qız qalası"ndan təxminən 2,5 kilometr məsafədə qədim Azərbaycan dövləti – Qafqaz Albaniyası dövrünə aid "Mahrasa" ("mah" həm qədim türkcə, həm də farsca "ay" deməkdir) məbədi yerləşir. Abidənin eramızın IV-V əsrlərində tikildiyi ehtimal edilir.

# Şuşada daha bir söz-sənət bayramı yekunlaşdı

## Cıdır düzündə "Əsrlərin sədası" adlı konsert-tamaşa nümayiş olunub

Xəbər verdiyimiz kimi, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin (AYB) təşkilatçılığı ilə 14-15 iyul tarixlərində mədəniyyət paytaxtımız Şuşada Vaqif Poeziya Günləri keçirilib. 40 illik tarixi olan poeziya, söz-sənət bayramı Şuşa işğaldan azad edildikdən sonra ikinci dəfə əzəli məkanında təşkil olunmuşdu.





Tədbirin ikinci günündə, iyulun 15-də Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin önündə əvvəlcə tanınmış şairlər Qarabağ mövzusunda şeirlərini səsləndiriblər. Sonra gənc şairlərin "Yeni nəfəs" layihəsi üzrə çıxışları olub.

Qeyd edək ki, dövlət və hökumət rəsmiləri, mədəniyyət və incəsənət xadimlərinin, AYB üzvlərinin, gənc yazıçılar, şairlər və qazilərin iştirak etdiyi poeziya bayramı iyulun 14-də "Qarabağ" mehmanxanasının qarşısında kitab sərgisi ilə başlayıb, daha sonra şairlərin çıxışları olub, rəngarəng konsert proqramı, ədəbi-bədii kompozisiyalar təqdim edilib. Builki poeziya bayramı həm də "Şuşa İli"nə möhtəşəm söz-sənət töhfəsi kimi yaddaşlara yazılıb.

Vaqif Poeziya Günləri çərçivəsində iyulun 14-də Cıdır düzündə konsert-tamaşa təqdim olunub.



"Əsrlərin sədası" adlı konsert-tamaşada Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Əfzələddin Xaqani, Məhsəti Gəncəvi, Xurşidbanu Natəvan, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Şah İsmayıl Xətai, Mir Möhsün Nəvvab kimi Azərbaycanın böyük söz ustadlarının obrazları canlandırılıb, onların sözlərinə yazılmış musiqilər səslənib, rəqs kompozisiyaları nümayiş olunub.

Əməkdar artist, rejissor Nicat Kazımovun quruluş verdiyi konsert-tamaşada Xalq artistləri Gülyanaq və Gülyaz Məmmədovalar, Samir Cəfərov, Əməkdar artistlər Fərqanə Qasımova, Qoçaq Əsgərov, Nuriyyə Hüseynova və digər incəsənət xadimləri çıxış ediblər.

Azad Şuşada gerçəkləşən hər bir mədəni-kütləvi tədbir 270 yaşlı şəhərimizin keçmiş şöhrətinin özünə qaytarılması, ədəbi-mədəni mühitinin canlanması baxımından böyük əhəmiyyətə malikdir.

Xatırladaq ki, ulu öndər Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya evinin təntənəli açılışı olub. Həmin səfər zamanı ümummilli lider ədəbiyyat xadimlərinin də istəyini nəzərə alaraq Şuşada Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verib. Bununla da ənənəvi poeziya bayramının əsası qoyulub.

# Yapon pianoçu Beynəlxalq Muğam Mərkəzində çıxış edib

## Diplomatik əlaqələrin 30 illiyi münasibətilə

Bu il Azərbaycanla Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının (7 sentyabr 1992-ci il) 30 illiyi tamam olur. Bu münasibətlə iyulun 18-də Yaponiyanın məşhur pianoçu və bəstəkarı Nakamura Tempeyin Bakıda, Beynəlxalq Muğam Mərkəzində (BMM) konserti keçirilib.





Konsert Yaponiyanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə gerçəkləşib.

Konsertdən əvvəl jurnalistlərə müsahibə verən Yaponiyanın ölkəmizdəki səfiri Cuniçi Vada bu ili həm də Yaponiya-Azərbaycan arasında dostluq ili kimi xarakterizə edib. O, il ərzində bir sıra tədbirlərin keçiriləcəyini bildirib: "Bu həftəsonu Dənizkənarı Milli Parkda "Çərpələng festivalı", qarşıdakı aylarda "Budo" – yapon döyüş sənətləri festivalı nəzərdə tutulub.

Diplomat bildirib ki, Nakamura Tempei Avropa turu çərçivəsində Cənubi Qafqaz regionuna ilk dəfə olaraq gəlib. Vurğulayıb ki, ifaçı Yaponiyanın UNESCO-ya daxil olan bütün irs mekanlarını gəzərək dəfələrlə xeyriyyə konserti verib.

Qeyd olunub ki, yaxın gələcəkdə səfirlik yapon musiqisini muğamla sintez etmək üçün ölkəsinin tanınmış ifaçılarını Azərbaycana dəvət edəcək.

Sonra konsert proqramı təqdim olunub.

Nakamura Tempei konsertdə Yaponiya və dünyanın aktual məsələlərini əks etdirən unikal musiqi parçalarını səsləndirib.

İfaçı "Şansı qaçırma", "Əjdahanın göz yaşları", "Montmartredə sevgi hekayəsi", "Sevginin ölümü", "Şanlı şeypur" və COVID-19-a həsr etdiyi "Pandemiyanın ələməti", "Qəmgin karantin günləri", "Təcrid" əsərlərini təqdim edib.

Konsertin sonunda yapon musiqiçinin Azərbaycanın Dövlət Himnini ifa etməsi isə musiqi axşamına xüsusi rəng qatıb.

Tamaşaçılar ayağa qalxaraq pianoçu ilə birlikdə himnimizi iftixarla səsləndiriblər.

Qeyd edək ki, BMM və Yaponiyanın Azərbaycandakı Səfirliyi arasında imzalanmış mədəni əməkdaşlıq haqqında memoranduma əsasən, qarşıda səfirliklə birlikdə yeni layihələr nəzərdə tutulur.

**Lalə**

# "Dənizə doğru"

## "Suraxanı" gəmi-muzeyində qrup sərgisi



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Suraxanı" gəmi-muzeyinin və "Chagh Art Platform"un təşkilatçılığı ilə "Dənizə doğru" adlı qrup sərgisi keçirilib. İyulun 16-da baş tutan sərgidə iştirakçılar üç məfhumu – səma, dəniz və gəmilərin lövbər saldığı limanı təsvir edən rəssamların əsərləri ilə tanış olublar.

Sərginin mövzusu hər kəsin müxtəlif səbəblərdən üz tutduğu Xəzər dənizidir. Kimi neft buruqlarına çalışmağa, kimi sadəcə, istirahətə, kimi ucsuz-bucaqsız mavi səma və dənizin seyrinə dalmaq üçün Xəzəri ziyarət edir.

Sərginin ziyarətçiləri tanınmış rəssamlar Eldar Qurbanov, İntiqam Ağayev, Rafail Əliyev, Vüqar Əli, Rəşad Cabarov, Mir Azər Abdullayev, Anar Hüseynzadə, Elşən Karaca, Leyla Altunay, Milena Nəbiyeva, Emin Qəhrəmanov, Elçin Hüseyn, Məmməd Rəşidov, Günel Ravilova, Abbas Məmmədov, Diana Əliyeva, Səbinə Səfərova, Aqil Həşimov, Rəşad Rzayev, Sahib Yaqubov və digər rəssamların marina janrında təsvir etdikləri əsərlərə nəzər yetirmək imkanı qazanıblar. Qeyd edək ki, "marinistika" (italyanca "marina" – su), dəniz görünüşü, dənizdə döyüş səhnəsi və digər dəniz hadisələrini təsvir edən janrdır.

Sərginin açılışında dünyada ilk tanker muzey olan "Suraxanı" gəmi-muzeyinin direktoru Tural İbrahimov, sənətşünaslıq üzrə fəlsəfə doktoru Qalib Qasımov, muzeyşünas Azadə Hüseynova iştirak ediblər.

Sərginin əhəmiyyətini yüksək qiymətləndirən Qalib Qasımov rəssamlar üçün belə bir platformanı və imkanı yaradıqları üçün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə və "Suraxanı" gəmi-muzeyinə təşəkkürünü bildirib.



İki gün davam edən sərgidə 40-a yaxın rəsm əsəri nümayiş olunub. Nümayiş olunan əsərlər tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Xatırladaq ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi mədəniyyətimizin inkişafı, təbliği, eləcə də yaradıcı gənclərin dəstəklənməsi məqsədilə müxtəlif layihələr gerçəkləşdirir. 2018-ci ildə şirkət yaranmasının 160 illik yubileyi münasibətilə gənc rəssamlar arasında təsviri incəsənət müsabiqəsi təşkil etmişdi. Daha sonra isə həmin müsabiqəyə təqdim olunan 100-dən çox əsərin Muzey Mərkəzinin sərgi qalereyasında sərgisi keçirilmişdi. Bu cür layihələr gələcəkdə də davam etdiriləcək.

**L.Azəri**

# Moskvada "Çingiz Aytmatov. Doğan günəş" adlı film çəkilib

## Filmdə ünlü yazıçının Azərbaycana münasibətindən də bəhs edilir

Moskvada ADM-DJEK studiyasında Yeltsin Mərkəzinin dəstəyi ilə "Çingiz Aytmatov. Doğan günəş" adlı sənədli film çəkilib. Filmdə dünya şöhrətli qırğız yazıçısının Azərbaycana münasibətindən də bəhs edilir, Çingiz Aytmatovun ulu öndər Heydər Əliyev haqqında dediyi sözlər diqqətə çatdırılır.

Ekran işinin ssenari müəllifləri Aleksey Şipulin və Qriqori Naxapetovdur. Q.Naxapetovun rejissorluğu ilə çəkilən filmdə diktor mətnini Aleksandr Drozdov oxuyub.

Qeyd edək ki, 2008-ci il Qırğızıstanda "Çingiz Aytmatov İli" elan olunmuşdu. Həmin il Çingiz Aytmatovun yubileyi Bakıda da keçirilmişdi. Prezident İlham Əliyev o vaxt Çingiz Aytmatovu və ünlü yazıçının ölkəmizə səfərinin təşkilatçısı, "Türkdilli dövlətlərin siyasətinə dəstək Fondu"nun rəhbəri Nüsrət Məmmədovu qəbul etmişdi. Dövlət başçısı Çingiz Aytmatovu "Dostluq" ordeni ilə təltif etmişdi.

Həmin ilin mayında Toktoqul Satılqanov adına Qırğızıstan Milli Filarmoniyasında "Türkdilli dövlətlərin siyasətinə dəstək Fondu"nun təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 85 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdi. Tədbirdə çıxış edən Çingiz Aytmatov ümummilli lider Heydər Əliyevin təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə də çox böyük nüfuza malik siyasi xadim olduğunu vurğulamışdı.

Dünya şöhrətli yazıçı 2008-ci ilin 12 dekabrında dünyasını dəyişdi.

Qeyd edək ki, "Çingiz Aytmatov. Doğan günəş" filmində "Türkdilli dövlətlərin siyasətinə dəstək Fondu"nun keçirdiyi hər iki tədbirdən fraqmentlər yer alıb.

# İstanbulda "Rəsmin türkcəsi" sərgisi

## Sərgiyə Xalq rəssamı Arif Əziz də qatılıb

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) professoru, Xalq rəssamı Arif Əziz İstanbulda Memar Sinan Gözəl Sənətlər Universitetinin Tophane-Amire Mədəniyyət və Sənət Mərkəzində təşkil olunan "Rəsmin türkcəsi" sərgisində iştirak edib.



Bu barədə ADMİU-dan məlumat verilib. Bildirilib ki, Arif Əzizin sərgidə təqdim etdiyi "Səmavilər", "İstanbulun ruhu" və s. əsərləri ziyarətçilərin marağına səbəb olub. Rəssam yerli bələdiyyə tərəfindən "Xatirə" ordeni ilə təltif edilib.

Sərginin əsas məqsədi türk mədəniyyətinin ortaq bədii dəyərlərinin və mədəni irsinin rəngkarlıqda əks olunmasıdır. Azərbaycan, Türkiyə, Qırğızıstan, Qazaxıstan, Türkmənistandan 16 rəssamın qatıldığı sərgidə 60-dan çox əsər nümayiş etdirilib. Sərginin kuratoru Xalq rəssamı Sakit Məmmədov qeyd edib ki, layihə uzunmüddətlidir və iştirakçı ölkələrdə də keçirilməsi nəzərdə tutulub.

# Bakıdakı Rus Evində "Oxuyan tar"

İyulun 21-də Bakıdakı Rus Evində (RİMM) Əməkdar artist, Azərbaycan Milli Konservatoriyasının dosenti, beynəlxalq festival və müsabiqələr laureatı Sahib Paşazadənin "Oxuyan tar" adlı solo konsert proqramı təşkil olunacaq.




RİMM-dən verilən məlumata görə, Azərbaycan və xarici bəstəkarların əsərlərindən ibarət konsertdə Sahib Paşazadəni pianoda Əməkdar artist Nərgiz Əliyeva müşayiət edəcək.

Qeyd edək ki, dünyanın 50-dək ölkəsində solo konsert proqramları ilə çıxış edən virtuoz tarzənin repertuarında Azərbaycan, Qərbi Avropa və Latın Amerikası bəstəkarlarının 500-dən çox əsəri yer alıb. Bu sıraya Azərbaycan bəstəkarlarının orkestrlə tar üçün yazdığı 30-dan çox konsert də daxildir. Bundan əlavə, bəstəkarlar məxsusi olaraq Sahib Paşazadənin ifası məqsədilə tar üçün əsərlər yazıblar. Onlardan birini braziliyalı bəstəkar Benjamin Taubkin yazıb.

# YARAT-ın "Müasir İncəsənət Məktəbi"nin birinci semestri başa çatıb

Əməkdar rəssam Sabina Şıxlinskayanın rəhbərliyi altında birillik YARAT Müasir İncəsənət Məktəbinin ilk semestri başa çatıb.



Məktəbin ilk üç ayı ərzində tələbələr yerli və xarici rəssamların, kuratorların, sənətşünasların, art-menecerlərin, incəsənət tədqiqatçılarının və müasir incəsənət sahəsində çalışan digər mütəxəssislərin mühazirələrini dinləyib, həmçinin müxtəlif muzeylərə, qalereyalara və sərgi mərkəzlərinə səfər ediblər.

Tədbir çərçivəsində birinci semestrdə fərqlənmiş tələbələrin müasir incəsənətə dair təqdimatları keçirilib.

Sabina Şıxlinskaya və YARAT Müasir İncəsənət Məkanının baş kuratoru Fərəh Ələkbərli kursun fəaliyyəti ilə bağlı iştirakçılara məlumat veriblər. Sonra tələbələr səhnəyə dəvət olunublar.

Qeyd edək ki, eksperimental layihənin məqsədi gənclər arasında peşəkar kadrların yetişdirilməsi və gənclərin peşəkar məşğulluğunun təşviq edilməsidir. Məktəbin təhsil proqramının əsas hissəsini mədəniyyət və incəsənət sahəsində tarixi ənənələrlə cari hadisələrin kəsişməsinin məzmunu əsasında formalaşan müəllif konsepsiyası təşkil edir.

# Xalq artisti, bəstəkar Sevda İbrahimova vəfat edib

Azərbaycanın musiqi ictimaiyyətinə itki üz verib. Görkəmli bəstəkar, Xalq artisti, professor Sevda İbrahimova iyulun 17-də, ömrünün 83-cü ilində vəfat edib.



Sevda İbrahimova 1939-cu il noyabrın 28-də Xalq yazıçısı Mirzə İbrahimovun ailəsində anadan olub. Azərbaycan Dövlət Konservatoriyasının Piano (M.Brennerin sinfi) və Bəstəkarlıq (Q.Qarayevin sinfi) fakültələrində təhsil alıb.

Sevda İbrahimova iki operanın (“Nənəmin nağılları”, “Biri vardı...”), beş fortepiano konsertinin, orqan, tar və orkestr üçün konsertlərin, kantataların, kamera-instrumental və vokal kompozisiyalarının, fortepiano solo üçün çoxsaylı silsilələrin, uşaqlar üçün müxtəlif janrlı əsərlərin, filmlər və tamaşalar üçün musiqilərin müəllifidir. Əsərləri ABŞ, Fransa, İsveç, Almaniya və digər ölkələrin konsert salonlarında ifa edilib.

Bəstəkarın orqan və simli orkestr üçün konsert (1990), qoboy və piano üçün “Qəmginlik” pyeslər silsiləsi (1991), skripka və kamera orkestri üçün musiqi (1992), 2 piano üçün “Azərbaycan təranələri” pyeslər silsiləsi (1994), tar və simli orkestr üçün “Sənin üçün darıxıram, Şuşam” (1999), səs, tar və simli orkestr üçün “Qurbansız qalan tarım” (elegiya-xatirə, 2000), simli orkestr üçün “Vətən düşüncələri” (2001) və digər əsərləri musiqi mədəniyyətimizin diqqətəlayiq nümunələrindəndir.

O, N.Gəncəvi, M.Şəhriyar, S.Vurğun, B.Vahabzadə, M.Araz, H.Ziya, R.Zəka, M.Dilbazi, H.Bülluri və başqa şairlərin sözlərinə qəlbəyatan mahnı və romanslar bəstələyib. Nəğmələri tanınmış müğənnilərin ifalarında ürəklərə yol tapıb.

Unudulmaz bəstəkar, gözəl insan Sevda İbrahimovanın xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq.

Allah rəhmət eləsin.

# Natəvan haqqında film çəkilir

Bu il görkəmli şairə, xeyriyyəçi Xurşibanu Natəvanın (1832-1897) anadan olmasının 190 illiyi qeyd edilir. Dövlət başçısı söz ustadının yubileyi haqqında sərəncam imzalayıb. Xan qızının yubileyi ilə bağlı ölkəmizdə müxtəlif tədbirlər keçirilir.

İctimai Televiziya tərəfindən Natəvan haqqında film çəkilir. Filmin redaktoru Bənövşə Məmmədova qəzetimizə bildirdi ki, film-tamaşa şəklində olan “Xan qızı” adlı ekran əsəri İlyas Əfəndiyevin “Xurşidbanu Natəvan” pyesi əsasında ərsəyə gəlir. 45 dəqiqə nəzərdə tutulan filmin ideyası Bakı Bələdiyyə Teatrının hazırladığı “Xan qızı” tamaşasından yaranıb.

Filmdə akademik Teymur Kərimli, Xalq yazıçısı Elçin, Xalq artisti Mərahim Fərzəlibəyov, Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev, yazıçı-publisist Mustafa Çəmənli, Natəvanın kötücəsi Sevil Hüseynova və başqalarının Xan qızının irsi ilə bağlı düşüncələri əks olunacaq.

Çəkilişləri Bakıda və Şuşada reallaşan filmdə Bakı Bələdiyyə Teatrının aktyorları rol alıb. Natəvanı Ülviyyə Rza, Xasay bəyi Tural Əhməd, Aleksandr Dümanı Aydın Əliyev canlandırır.

Bədii-sənədli janrda lentə alınan ekran əsərinin quruluşçu rejissoru Elçin Məmmədov, redaktoru Bənövşə Məmmədova, operatorları Taleh Həsənzadə, Tərlan Məmmədov, səs rejissoru Fuad Allahverdiyev, rejissor assistenti Qurban Şirəliyev, işıq üzrə rəssamı Fərid Cəfərov, prodüseri İbrahim Ağazadədir. Film ilin sonunda ekranlara çıxacaq.

**Lalə Azəri**

III yazı

# “Şuşalı bəstəkarlar”

“Şuşa İli” münasibətilə qala-şəhərimizin Azərbaycanın musiqi mədəniyyətinə bəxş etdiyi sənətkarlar haqqında silsiləmizi davam etdiririk. “Şuşalı bəstəkarlar” rubrikasında bu dəfə Əşrəf Abbasov və Zakir Bağırovu yada salacağıq.

Xalq artisti, professor Əşrəf Cəlal oğlu Abbasov 1920-ci il martın 23-də Şuşada anadan olub. İlk orta və tar ixtisası üzrə musiqi təhsilini bu şəhərdə alıb. Təhsil müddətində musiqi məktəbində nəzəri fənlər müəllimi – Üzeyir Hacıbəylinin tələbəsi olmuş Fatma Zeynalova onu dünya bəstəkarlarının yaradıcılıqları ilə tanış edir. Musiqiyə marağı Əşrəf Abbasovu tar üçün kiçik həcmli pyeslər yazmağa həvəsləndirir. Tez-tez Şuşaya gələn Üzeyir Hacıbəyli bu gəncin istedadını duyur və Bakıya təhsil almağa dəvət edir. Beləliklə, 1936-cı ildən Əşrəf Abbasovun həyatında maraqlı dövr başlayır, sənət və karyerası ilə bağlı ilk addımlarını atır. O, 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını (indiki BMA), 1952-ci ildə isə Moskva Dövlət Konservatoriyasının aspiranturasını bitirir. Ömrü boyu Şuşa musiqi mühitinin və





Ü.Hacıbəylinin əsasını qoyduğu peşəkar bəstəkarlıq məktəbinin ənənələrini yaradıcı şəkildə davam etdirir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında Əşrəf Abbasovun xüsusi xidmətləri var. O, xalq musiqisinə yaradıcılıqla yanaşaraq özünün yeni əlavələri ilə orijinal əsərlər yazıb. Bəstəkarın yaradıcılığında simfonik musiqi xüsusi yer tutur. Bu sahəyə bəstəkar bütün yaradıcılığı boyu müraciət edib. Onun simfonik orkestr üçün ilk əsəri tələbə ikən yazdığı “Rəqs süitası” olub. Əşrəf Abbasovun fortepiano ilə orkestr üçün “Konsert”, simfonik orkestr üçün “Konsertino”, “Şuşa”, “Gələcək gün”, “Dramatik poema”sı bəstəkarın ən kamil simfonik əsərlərindən sayılır. “Səndən mənə yar olmaz”, “Dağlar qoynunda” operettaları da müəllifinə böyük şöhrət gətirib.

Bəstəkarın yaradıcılıq zirvəsini isə, sözsüz ki, “Qaraca qız” baleti (1965) təşkil edir. Bu əsər həm də uşaqlar üçün yazılmış ilk milli balet nümunəsidir. 1968-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulmuş balet şuşalı yazıçı-dramaturq, maarifçi Süleyman Sani Axundovun “Qorxulu nağıllar” silsiləsinə daxil olan eyniadlı hekayə əsasında hazırlanıb. Librettonun müəllifi də əslən Şuşadan olan Xalq artisti Əfrasiyab Bədəlbəylidir.

Əsər həyatda bir çox çətinlik və ədalətsizliklərlə qarşılaşan balaca Tutunun – Qaraca qızın bədbəxt taleyindən bəhs edir. Qaraca qız hər şeyə rəğmən insanlara olan sonsuz məhəbbətini, sədaqət və xeyirxahlıq kimi hissləri ömrünün sonunadək qoruyub saxlayır...

Zəngin yaradıcılığa malik Əşrəf Abbasovun mahnı və romansları şeirlərin mətni ilə poetik vəhdət yaradıb. Onun M.Füzuli, M.P.Vaqif, M.Müşfiq, A.Şaiq və başqa şairlərin sözlərinə yazdığı musiqilər həzinliyi, emosionallığı ilə dinləyicinin ruhunu oxşayır. Bəstəkarın tamaşalara yazdığı musiqilər ifadəliyi, coşqunluğu, lirizmi ilə seçilir. O, tamaşa müəlliflərinin ideyalarını, obrazların xarakterini musiqinin dili ilə müvəffəqiyyətlə əks etdirib.

Əşrəf Abbasov müxtəlif illərdə Asəf Zeynallı adına Musiqi Texnikumunun direktoru, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, kafedra müdiri vəzifələrində çalışıb. Görkəmli bəstəkar, musiqişünas, pedaqoq və ictimai xadim 1992-ci ildə Bakıda dünyasını dəyişib.

***

Əməkdar incəsənət xadimi, bəstəkar, pedaqoq, ictimai xadim, professor Zakir Cavad oğlu Bağırov 16 mart 1916-cı ildə Şuşada anadan olub. İlk musiqi təhsilini 1932-ci ildə Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki fəhlə fakültəsində alıb, 1935-ci ildə Moskva Dövlət Konservatoriyası nəzdində Musiqi Texnikumuna göndərilib. O, texnikumu bitirdikdən sonra könüllü olaraq İkinci Dünya müharibəsində iştirak edib. Müharibədən sonra ordudan tərxis olunaraq Moskva Dövlət Konservatoriyasına daxil olub və 1949-cu ildə həmin konservatoriyanı müvəffəqiyyətlə bitirib.

Üzeyir Hacıbəylidən dərs alan Zakir Bağırov özünü həmişə dahi musiqiçinin yetirməsi hesab edib. O, Azərbaycan Dövlət Konservatoriyasında müəllim, Musiqi nəzəriyyəsi kafedrasının müdiri işləyib. Eyni zamanda musiqi folklorumuzun toplanılması və nota salınması istiqamətində də xidmət göstərib. Bəstəkar 1935-ci ildə ilk dəfə olaraq bəstəkar Tofiq Quliyevlə birlikdə tarzən Mansur Mansurovun ifasında “Rast”, “Dügah” və “Segah-zabul” muğamlarını nota yazaraq çap etdirib. Zakir Bağırov həmçinin “Azərbaycan xalq rəqsləri” məcmuəsinin müəlliflərindəndir.

“Aygün” və “Qoca Xattabıç” operaları, “Qayınana” və “Kəndimizin səsi” operettaları, habelə fortepiano ilə simfonik orkestr üçün, tar ilə simfonik orkestr üçün kamera-instrumental əsərlər, mahnı və romanslar, bədii və sənədli filmlərə, dram tamaşalarına yazılmış musiqilər bəstəkarın yaradıcılıq diapazonunun genişliyindən xəbər verir.

Zakir Bağırov 1950-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, sonradan təşkilatın İdarə heyətinin üzvü olub. Müxtəlif illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri, Televiziya və Radio Verilişləri Komitəsinin bədii rəhbəri, Azərbaycan Musiqi Fondu İdarə heyətinin sədri vəzifələrində çalışıb. 8 yanvar 1996-cı ildə Bakıda vəfat edib.

**Lalə Azəri**

I yazı

# Şuşa – bir teatr səhnəsi kimi...

Təsadüfi deyil ki, Şuşaya Qarabağın döyünən ürəyi, şeir, sənət beşiyi deyirlər. “Qafqazın konservatoriyası” da adlandırılan qala-şəhərimiz bir çox milli sənət nümunələrin də intişar tapdığı ilk ünvanlardan, sənət alovunun çatıldığı ilk ocaqlardandır. Azərbaycan teatr sənətinin təşəkkül və inkişafında da Şuşa sənət mühiti ön planda olub.

Tarixən ölkəmizin bir çox bölgələrində geniş yayılan milli xalq ayin və oyunları, eləcə də dini tamaşalar Şuşada bir ayrı ovqatda təşkil edilib. Bununla bağlı maraqlı araşdırmalar, zaman-zaman Şuşada olmuş xarici səyyah və sənətkarların xatirələri də var.

XIX əsrin ortalarından etibarən Şuşada teatr tamaşaları yeni ictimai məzmun və forma kəsb etməkdə idi. Bunun da çox sadə səbəbi var idi: Şuşanın ziyalı zümrəsi.

Azərbaycanın, Şuşanın teatr tarixini tədqiq edən bir sıra mütəxəssislərin də qeyd etdiyi kimi, ilk vaxtlarda yerli və başqa millətlərin nümayəndələri ilə birlikdə Şuşada teatr və sirk tamaşaları göstərilməyə başlayır və bu proses elə də rəvan getmir.

XIX əsrin 40-cı illərində şuşalıların mədəni həyatı haqqında mərhum teatrşünas İnqilab Kərimov yazır: “Məlum olur ki, yerli əhali yalnız xalq teatrlarının tamaşaları, xanəndə və aşıqların çıxışları ilə kifayətlənməyib, müasir teatr tamaşalarına da baxırmışlar. Şuşada yerli kəndirbazların və səyyar sirk artistlərinin də çıxışları olurdu”.

Ümumiyyətlə, XIX əsrin ortalarında Şuşanın mədəni həyatında bir canlanma duyulmaqda idi. Belə ki, 1848-ci ildə artıq Şuşada tamaşaların oynanılması üçün teatr və sirk səhnələri var idi. Bu fakt dövrün görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinin xatirələrində də öz əksini tapıb. Mənbələrdən məlum olur ki, Şuşa ziyalıları vaxtaşırı tamaşalar oynayır, ədəbi məclislər qurur, o zamanlar Cənubi Qafqazın mədəni mərkəzi olan Tiflisdəki mütərəqqi düşüncəli maarifçi ziyalılarla sıx əlaqə saxlayırdılar.

Yeri gəlmişkən, deyək ki, XIX əsrin 50-ci illərindən etibarən böyük dramaturq, mütəfəkkir Mirzə Fətəli Axundzadənin əsərləri Tiflisdə çap olunmağa, tamaşaya qoyulmağa başlayır. Təəssüf ki, müəllifin vətəni Azərbaycandan başqa. Sözsüz ki, bu fakt mütəfəkkiri narahat edir və əsərlərinin ölkəmizdə də çapına can atırdı. Bu məqsədlə o, Tiflisdən vətənə gəlir. Özü də Bakıya yox, məhz Şuşaya. 1852-ci ildə Şuşada xalq arasında yayılması üçün Qarabağ xanzadələrinin keçmiş müəllimi, Xoşnəvis Mirzə Əbdüllətif Molla Kəlbəli oğlunu yanına dəvət edir və qısa müddətdə əsərlər köçürülərək yayılır.

Xalqı maarifləndirməyin yolunu həm də teatrda görən yerli ziyalılar yanğı ilə onun təşəkkülünə, daha geniş auditoriyanın istifadəsinə verilməsinə can atırdılar. Lakin camaatın teatr tamaşalarına güclü axını heç də birmənalı qarşılanmır, daha doğrusu, buna ümumi maraq göstərilmirdi. Bir çox hallarda mane də olunurdu. Sözsüz ki, teatr, yenilikçi fikirlərin meydanı olan səhnə əksər din xadimlərinin və cahillərin xoşuna gəlmirdi. Bu mənada müxtəlif yollarla insanların teatra olan marağının qarşısını almaq istəyənlər, cahillər teatr tamaşaları və şeir-sənət məclisləri keçirmək üçün Şuşa ziyalılarının yaratdıqları teatr salonundan başqa məqsədlər üçün istifadə etmək istəyirdilər. Maarifə, təhsilə xor baxanların təhqir və təqiblərinə məruz qalan teatr həvəskarları bəzən öz həyatları bahasına olsa belə, tamaşa oynamaqdan çəkinmirdilər.

Şuşa teatrının araşdırıcılarından Yaqub Əlioğlu şəhərin ilk teatr fədailərindən olan müəllim, şair təbli aktyor Mirzə Muxtarın maraqlı bir xatirəsini diqqətə çatdırır: “45 il bundan qabaq (1874-cü ildə – Y.Əlioğlu) Şuşada mərhum Mirzə Fətəli Axundovun əsəri “Hacı Qara”nı tamaşaya qoyduq. O vaxtda mətbəəfilan olmadığından qələm ilə 35 elan yazdım və payladım camaata. Axşam tamaşaçıların bəziləri “şəriətə zidd bir şey olsa, vay halına” deyib məni hədələdilər. Allaha şükür ki, dinə müxalif bir şey tapmayıb razı qaldılar”.

Təəssüf ki, sonralar teatr tamaşalarındakı çıxışlarına görə Mirzə Muxtar təqiblərə dözə bilməyib doğma şəhərini tərk etməli olmuşdu.

Dövrün qabaqcıl insanları, maarif və mədəniyyət xadimləri bütün qüvvələrini toplayaraq teatr tamaşalarının müntəzəm göstərilməsinə çalışırdılar. Xüsusilə şəhərin mütərəqqi ziyalıları hər yay tətilində birlikdə yeni-yeni tamaşalar göstərirdilər. Bu tamaşalar əsasən Axundzadənin komediyalarından ibarət olurdu. Elə iştirakçıları da təxminən eyni adamlar, sonradan hər biri böyük şöhrət tapmış elm, sənət fədailəri idi. Siyahıya nəzər salaq: Yusif bəy Məlikhaqnəzərov, Haşım bəy Vəzirov, Bədəl bəy Bədəlbəyov, Əbülfət Vəli, Firidun bəy Köçərli, Mirzə Muxtar Məmmədov, Həsənəli bəy Sarıcalinski, İsmayıl Şəfibəyov, Cabbar Qaryağdıoğlu və başqaları.

Onu da qeyd edək ki, bu tamaşalarda iştirak etmək üçün xüsusi musiqiçilər də dəvət olunurdu. Bu barədə Qulam Məmmədlinin “Azərbaycan teatrının salnaməsi” kitabında oxuyuruq: “Ümumiyyətlə, Şuşa musiqiçilərinə, xanəndələrinə teatr səhnəsi doğma idi. Belə ki, onların əksəriyyəti Tiflisdə keçirilən teatr tamaşalarının antraktı (fasiləsi) zamanı çalıb-oxuyurdular. Görünür, elə bu amilin özü, xanəndələrin teatr tamaşalarında çıxışı, gələcəkdə musiqi ilə oxunan (operanın) teatr tamaşalarının meydana gəlməsinə müəyyən mənada öz təsirini göstərə bilmişdir”.

Teatra həvəs göstərən ziyalıların sayı artdıqca onların arasında səhnə əsəri yazmağa həvəs göstərənlər də tapılırdı. Uşaqlıqda Şuşada teatr sənətinə vurğunluğunun necə baş verdiyini Ə.Haqverdiyev öz xatirə yazısında belə açıqlayır: “1884-cü ildə 14 yaşımda ikən bir dəfə teatra getdim. Mirzə Fətəlinin “Xırsquldurbasan” pyesini oynayırdılar. Teatrda pərdə açılanda mən bu əqidədə idim ki, fokus göstərəcəklər. Pərdə açıldı, bir də baxdım ki, müəllimim Yusif bəy əynində çuxa, başında buxara papaq, belində xəncər, əlində tüfəng səhnədə dayanıb igidlikdən dəm vurur. Get-gedə tanıdığım müəllimlərimin birini arvad libasında görüb teatrın və komediyanın nə olduğunu anladım”.

***

Şuşada teatra maraq, tamaşaçıların sayı sürətlə artırdı. Təkcə 1885-ci ilin avqustunda Şuşadakı teatr həvəskarları M.F.Axundzadənin “Müsyö Jordan və dərviş Məstəli şah”, “Hacı Qara”, “Vəziri-xani-Lənkəran” komediyaları uğurla oynanılır. Nümayişlərdən əldə edilən vəsait isə xeyriyyə məqsədilə şəhərdəki sənət məktəbinə verilir.

Yeri gəlmişkən, Şuşada XIX əsrin 40-cı illərindən rus dilində də tamaşalar göstərilirdi. Əsrin sonlarında teatrda rus truppası da fəaliyyətə başlayır. Bu truppanın repertuarında daha çox dünya dramaturgiyasından nümunələr oynanılırdı. Deməli, yerli teatr həvəskarları həm də əcnəbi müəlliflərin əsərləri ilə tanış olmaq imkanı qazanırdılar.

Getdikcə Şuşanın mədəni həyatında teatr qaynar bir məkana çevrilirdi. Amma yerli ziyalı gənclərin teatra daha çox diqqət yetirməsi ruhaniləri bərk narahat edirdi. Ona görə teatr çıxardanlar tez-tez onların qəzəbinə tuş gəlirdilər. Bəzən də ziyalılar ilə din xadimləri üz-üzə gəlməli olurdular. Bununla bağlı “Novoe obozrenie”dəki bir başqa məlumat diqqəti çəkir: “Bu günlərdə həvəskarların iştirakı ilə iki pyes səhnələşdirilmişdir. Bu pyeslərdən biri, hələ indiyədək heç yerdə oynanmamışdır. Biri “Evlənmək su içmək deyil”, o birisi isə birpərdəli “Qocalıqda yorğalıq” əsəridir. Tamaşanın sabahı şəhərə səs yayıldı ki, onun müəllifi (Haşım bəy Vəzirov – Y.Əlioğlu) bu əsərinə görə öldürüləcəkdi. Xüsusilə, ruhanilər bərk qəzəblənmişdilər. Ziyalılar isə müəllifə havadar çıxmışdılar”.

Ümumiyyətlə, Şuşada teatr tamaşası qurmaq, oynamaq heç də həmişə asan olmayıb. Xüsusilə, bu işlə böyük arzu və istəklə məşğul olan Ə.Haqverdiyevin başı çox bəlalar çəkib. Görkəmli yazıçımız Abdulla Şaiq öz xatirələrində yazır: “Ə.Haqverdiyevə Şuşada “Şəbihgərdan” adı qoyulmuşdur. 1896-cı ildə Şuşa şəhəri müəllimlərinin və Nikolayevski məktəbi tələbələrinin iştirakı ilə “Dağılan tifaq” faciəsi tamaşaya qoyulur. Tamaşanın rejissorluğunu Ə.Haqverdiyey özü edirmiş. Rollar müəllimlərlə tələbələr arasında paylanır. Üçüncü bəyin rolunu - S.S.Axundov, qumarda uduzan bəyin arvadının rolunu tələbələrdən Rza Mirzəyev oynayır. Məktəblilər nəğməsini Ü.Hacıbəyov və başqaları oxuyurlarmış. Tamaşanın sabahı arvad rolunu oynayan R.Mirzəyevin anası məktəbə gəlib hay-küy qopararaq “Hanı o Şəbihgərdan? Mənim oğluma arvad paltarı geyindirib xalqın qabağına çıxardan o Əbdürrəhim hardadır? Onun başına bir oyun açım ki...” deyə Haqverdiyevi hədələyirmiş”.

Həmin dövrə nəzər salarkən ən çox səhnəyə qoyulan müəlliflər sırasında, təbii ki, M.F.Axundzadə başda gəlir. Onun “Hacı Qara” komediyası ikinci dəfə 1897-ci ildə Şuşada tamaşaya qoyulub. Həmin illərdə tamaşaların təşkili və rejissorluğu N.Vəzirov və Ə.Haqverdiyevin üzərinə düşürdü. Qadın rollarının ifaçıları da təxminən eyni adamlar idi: Rəsul Tahirov və Salah bəy Zöhrabbəyov. Hacı Qara rolunu H.Sarıcalinski, Əsgər bəy rolunu Cavad bəy Vəzirov, Səfər bəy rolunu F.Köçərli, Kərəməli rolunu isə H.Vəzirov ifa edirdi.

Artıq Şuşada teatr mütərəqqi ideyaların təbliğatçısı kimi xalqın şüuruna təsir etməkdə və daha geniş müstəvidə yayılmaqda idi. Bunu Şuşa teatrının 1903-1910-cu illər repertuarına nəzər salarkən aydın görürük. Janr müxtəlifliyi və müəllif rəngarəngliyi oturuşmuş repertuar siyasətinin formalaşdığına işarə idi. Nümunələr sırasında Axundzadənin “Hacı Qara”, V.Şekspirin “Otello”, Ə.Haqverdiyevin “Dağılan tifaq”, “Hacı Daşdəmir”, “Ac həriflər”, N.Vəzirovun “Hacı Qəmbər”, “Dad yarımçıq əlindən”, “Daldan atılan daş topuğa dəyər”, S.Qənizadənin “Xor-xor”, “Axşam səbri xeyir olar”, N.Nərimanovun “Nadir şah”, Z.Hacıbəyovun “Evliykən subay”, “Əlli yaşında cavan”, Y.Kənanın “Evlənmək” və başqa müəlliflərin əsərləri Şuşanın teatr həvəskarları Y.Məlikhaqnəzərov, H.Vəzirov, Zülfüqar Seyidbəyov, Məmmədəli Orucov, Z.Hacıbəyov, Həmid Axundov, Musa Şuşinski, Surxay Abdullayev, Mirzə Ələkbər Axundov, Xosrov və Hüsü Mamayevlər tərəfindən uğurla oynanılır, tamaşaçılar tərəfindən alqışlanırdı.

***

Şuşanın teatr mühitinə Bakı artistləri də öz sənət töhfəsini bəxş edir, yerli həvəskarlar və tamaşaçılarda teatr tamaşalarına marağı daha da artırırdılar. Həmin dövrlərdə artıq xalq arasında məşhur artist kimi tanınan Hüseyn Ərəblinski və Sidqi Ruhulla tez-tez şuşalı teatrsevərlərin qarşısında çıxış edirdilər.

Teatrşünas Y.Əlioğlu Şuşa və onun teatr mühitini təsvir edərkən maraqlı bir paralel aparır: “XIX əsrdən fərqli olaraq XX əsrin əvvəllərində artıq Şuşada teatr tamaşalarına və aktyorlara münasibət dəyişərək yeni müsbət fikirlər formalaşmağa başlamışdır. Təbii, bu müsbət fikir, hər cür təzyiq və təqiblərə baxmayaraq, Şuşa teatrının tamaşaları sayəsində mümkün olmuşdur”.

Görkəmli yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin də yaradıcılıq taleyində Şuşanın öz əhəmiyyətli izi var. Onun şuşalı ziyalılarla sıx ünsiyyəti olub. Bunun nümunəsi olaraq 1916-cı ilin 17 avqustunda Mirzə Cəlilin “Ölülər” tragikomediyası Şuşada, Xurşidbanu Natəvanın qızı Xanbikənin evində yerləşən məktəbdə tamaşaya qoyulub. Bu tamaşadan sonra Mirzə Cəlil də bir sıra din xadimlərinin qəzəbinə tuş gəlib. Amma Şuşada hamı mollalar kimi düşünmürdü. Şuşada, ümumiyyətlə, sənətə və sənətkara bütün dövrlərdə hörmət və ehtiram olub...

XX əsrin əvvəllərində Şuşada oturuşmuş teatr mühiti sovetləşmə zamanında da, sənətin ideologiya maşınına çevrilməsi dönəmində də özünəməxsusluğunu, belə demək mümkünsə, müstəqilliyini, milli xüsusiyyətlərini qoruyub saxlaya bilmişdir. Bunu müstəqil, milli ziyalıların yaratdığı Şuşa teatrının sütunları üzərində qurulan “Şuşa kolxoz-sovxoz teatrı”nın, sonrakı mərhələdə Ü.Hacıbəyli adına Şuşa Dövlət Musiqili Dram Teatrının, eləcə də Şuşa Musiqili Xalq Teatrının, elə indiki Şuşa Dövlət Musiqili Dram Teatrının da ana ideyası kimi görə bilirik.

**Həmidə Nizamiqızı**

# "İrsin idarəedilməsi bacarıqlarının inkişafı" proqramı üzrə üçüncü təlim yekunlaşıb

*əvvəli səh. 1-də*



ADA Universitetinin müəllimi Lalə Kişiyeva yaradıcı sənayenin əsas anlayışları, tarixi inkişaf mərhələləri, qlobal kontekstdə statistik rəqəmləri təqdim edib. O, əsas təməli insan yaradıcı düşüncəsinə dayanan bu sənaye növünün yeni rəqəmsal dövrdə açdığı imkanlardan danışıb. İnteraktiv sual-cavab şəklində aparılan sessiyada iştirakçıların fəaliyyət sahələrində tətbiq edilən rəqəmsal texnologiyalar haqqında fikir mübadiləsi aparılıb və real keyslərin üstünlükləri müzakirə edilib. Təqdimatda həmçinin blokçeyn texnologiyalarından yaradıcı sənaye məhsullarının dayanıqlı marketinqi və monetizasiyası üçün əsas vacib tətbiq istiqamətləri və tələbləri izah edilib.

Tədbirdə fərqli ölkələrdən mədəni fəaliyyət sahələrində uğurlu layihələrdən də bəhs edilib. Kreativ sahibkar kimi dəvət edilmiş "Ninka Cards&Gifts" şirkətinin rəhbəri Nərgiz İbrahimova təlim iştirakçıları ilə öz uğur hekayəsini bölüşüb.

"Arts Council" Azərbaycan təşkilatının rəhbəri Dadaş Məmmədov milli mədəni irsin və sənət ənənələrinin xarici ölkələrdə təbliğinə dair reallaşdırılan təşəbbüslər haqqında ətraflı məlumat verib.

Mədəniyyət və incəsənət sahəsi üzrə beynəlxalq ekspert Cahangir Səlimxanov mədəni layihələrin ərsəyə gəlməsində kreativ yanaşmalar, həllər, innovasiyalar mövzusunda təqdimatında müxtəlif layihə və proqramlar üzərindən kreativ metodika, uzlaşdırma qabiliyyətləri, kreativ eksperimentlərindən danışıb.

Mədəniyyət Nazirliyinin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Ramil Abbəkirov nazirliyin yaradıcı sənayelərin inkişafı sahəsində strateji fəaliyyət istiqamətləri və Milli Prioritetlər çərçivəsində nəzərdə tutulan fəaliyyətlər barədə təqdimat edib.

Təlim kursunda Mədəniyyət Nazirliyi və onun tabeliyində fəaliyyət göstərən müəssisələrin, Dövlət Turizm Agentliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Şuşa Şəhəri Dövlət Qoruq İdarəsi, AMEA-nın müvafiq institutları, Mədəniyyət və İncəsənət Universiteti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və digər qurumların, yaradıcı təşkilatların nümayəndələri iştirak ediblər. Kursun sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

Xatırladaq ki, "İrsin idarəedilməsi bacarıqlarının inkişafı" proqramı üzrə iyun ayında keçirilmiş iki təlim kursu UNESCO-nun "Dünya mədəni və təbii irsinin qorunması haqqında" 1972-ci il Konvensiyasına və "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasına həsr olunmuşdu.

# Ağac fiqurlardan monumental abidələrə

## Heykəltəraş İbrahim Zeynalovun yaradıcılığına qısa nəzər



O, paytaxt Bakıda və rayonlarımızda ucaldılmış bir çox monumental heykəltəraşlıq əsərlərinin və çoxsaylı dəzgah heykəltəraşlığı nümunələrinin müəllifi kimi tanınır. Uzun müddət pedaqoji fəaliyyətlə məşğul olub, heykəltəraşlıq sənətinin sirlərini gənclərə öyrədib.

Bu yazıda Xalq rəssamı İbrahim İsmayıl oğlu Zeynalov (1934-2003) haqqında söz açacağıq.

İbrahim Zeynalov Bakıda anadan olub. Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu (1956) və Xarkov Dövlət Rəssamlıq İnstitutunu (1962) bitirib. Müsahibələrindən birində deyirdi: "Hələ uşaq yaşlarından plastilindən, ağacdan heyvan fiqurları düzəltməyi çox sevirdim. Bu həvəs sonradan arzuya çevrilərək qəlbimdə kök saldı... İlk müəllimim Əməkdar incəsənət xadimi, heykəltəraş Həyat Abdullayeva olub. Mən ondan çox şey öyrənmişəm...".

İ.Zeynalov Azərbaycanın tanınmış dövlət, elm, sənət adamlarının bədii-estetik təsir gücünə malik obrazlarını ərsəyə gətirib. Sənətkarın fərdi şəkildə və həmkarları ilə birgə hazırladığı monumental heykəltəraşlıq nümunələrindən "İmadəddin Nəsimi" (Xalq rəssamı Tokay Məmmədovla birgə, tunc, qranit, 1978, Bakı), "Mirzə Ələkbər Sabir" (tunc, qranit, 1989, Şamaxı), "Şah İsmayıl Xətai" (Əməkdar rəssam, heykəltəraş Zakir Mehdiyevlə birgə, tunc, qranit, 1990, Bakı), "Mücirəddin Beyləqani" (Əməkdar rəssam, heykəltəraş Zakir Mehdiyevlə birgə, tunc, qranit, 1991, Beyləqan), "İsmayıl bəy Qutqaşınlı" (Əməkdar rəssam, heykəltəraş Zakir Mehdiyevlə birgə, tunc, 1992, Qəbələ), "Nizami Gəncəvi" (tunc, qranit, 1993, Bakı), "Hacı Zeynalabdin Tağıyev" (tunc, qranit, 1994, Bakı) və başqa əsərləri qeyd etmək olar.

Heykəltəraşın obraz yaradıcılığı, monumentallığı və estetik təsir qüvvəsi ilə diqqətçəkən əsərləri seyrçidə xoş duyğular yaratmaqla yanaşı, mənəvi irsimizin zənginliyini nümayiş etdirir. Məşhur şair M.Beyləqani, satirik poeziyamızın böyük ustadı M.Ə.Sabir və yazıçı İ.Qutqaşınlının doğma yurdlarında ucaldılan abidələri öz bədii ifadə və işlənilmə xüsusiyyətlərinin dolğunluğu ilə nəzəri cəlb edir.

Bu yerdə qeyd etmək yerinə düşər ki, heykəltəraşlar İ.Zeynalovla Z.Mehdiyevi yaxın dostluq və yaradıcılıq telləri bağlayırdı. Sənətşünaslıq doktoru, professor Cəmilə Novruzova heykəltəraşın yaradıcılığı haqqında yazır: "İbrahim Zeynalovun abidələri və layihələri bir-birindən forma müxtəlifliyi, əldə olunmuş quruluşların təkrarlanmaması cəhdi ilə fərqlənir. Onun abidələrinin təsir effekti tamaşaçıya yaxınlıq, fiqur və postament ölçülərinin düşünülmüş uzlaşdırılmasındadır. Çox vaxt abidə hazırlanmazdan öncə portret üzərində iş gedir, heykəltəraş məhz burda gələcək monumental obrazın cizgilərini müəyyənləşdirir. Beləliklə, heykəltəraşın yaratdığı abidələr yüksək idealı, yaradıcı şəxsiyyətin möhtəşəmliyini və gözəlliyini təsdiqləyən monumental obrazın yaradıcılıq axtarışları ənənələrini izləməyə imkan verir. Bu ənənələrin ideya zəminindən onun formal əlamətləri də yaranır..." ("Heykəltəraş İbrahim Zeynalov". Albom-monoqrafiya. Bakı, 1998).

İ.Zeynalovun büst-portret əsərləri surətlərin fərdi psixoloji xüsusiyyətlərinin professional işlənilməsi baxımından seçilir və obrazların daxili-mənəvi dünyalarını dəqiqliklə təcəssüm etdirir.



"Mirzə Fətəli Axundov" (mərmər, 1963), "Xəyal. Gənc qız portreti" (mərmər, 1979), "Rəşid Behbudov" (tunc, 1986), "Mirzə Ələkbər Sabir" (tunc, 1989) "Habil Əliyev" (tunc, 1990) büstləri bu qəbildəndir.

Heykəltəraş həmçinin "Memar Əcəmi" (tunc, 1976), "M.L.Rostropoviç" (tunc, 1997) barelyeflərinin və H.Z.Tağıyevin xatirə lövhəsi (Əməkdar rəssam, heykəltəraş Zakir Mehdiyevlə birgə, tunc, 1996, Milli Azərbaycan Tarixi Muzeyinin binası), Məmməd Səid Ordubadinin qəbirüstü abidəsi (qranit, 1973) və başqa memorial xatirə nümunələrinin müəllifidir.

Görkəmli yazıçı M.S.Ordubadinin Fəxri xiyabandakı qəbirüstü abidəsi orijinal kompozisiya quruluşuna malikdir və ustalıqla həll edilib. Yazıçının mənalı surəti monolit qranit üzərində əks olunub. Digər qayalaşmış qranit daşlarda isə onun tarixi romanlarının adları – "Qılınc və qələm", "Gizli Bakı", "Dumanlı Təbriz", "Döyüşən şəhər" – həkk olunub.

İ.Zeynalovun heykəltəraşlıq əsərləri orijinal kompozisiya quruluşu, professional işlənilmə xüsusiyyətlərinə malikdir və ayrı-ayrılıqda bədii təhlil predmeti olmağa layiq sənət nümunələridir.

Sənətkar məhsuldar yaradıcılıq fəaliyyəti ilə yanaşı iyirmi il Azərbaycan Dövlət Pedaqoji İnstitutunda müəllim, baş müəllim, dosent, professor, kafedra müdiri (1973-1993) işləyib, Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru (1994-2003) vəzifəsində çalışıb. Əsərlərindən ibarət sərgilər təşkil olunub. Bədii yaradıcılıq nümunələri müxtəlif muzey, qalereya və şəxsi kolleksiyalarda saxlanılır.

İ.Zeynalovun yaradıcılığı və fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, respublikanın "Əməkdar incəsənət xadimi" (1977), "Xalq rəssamı" (1988) fəxri adlarına layiq görülüb, SSRİ (1972) və Azərbaycan SSR (1976) Dövlət mükafatlarının laureatı olub.

**Əsəd Quliyev**
**sənətşünas, Rəssamlar İttifaqının üzvü**

## Xatirə təqvimi — 19–21 iyul

### Azərbaycan

**19 iyul 1915** – Xalq artisti, opera müğənnisi (bariton) Ağababa Balağa oğlu Bünyadzadə (1915 – 17.12.1974) Bakının Kürdəxanı kəndində doğulub. 1938-ci ildən Akademik Opera və Balet Teatrının solisti olub.

**20 iyul 1903** – Əməkdar incəsənət xadimi Bəxşi Həsən oğlu Qələndərli (1903 – 14.9.1985) Xankəndidə doğulub. C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında baş rejissor, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında rejissor işləyib.

**20 iyul 1933** – Əməkdar rəssam Məmmədəli Namazəli oğlu İsmayılov (1933 – 21.8.2010) Naxçıvan şəhərində anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında quruluşçu rəssam işləyib.

**20 iyul 1936** – Tarixçi, arxeoloq, AMEA-nın müxbir üzvü Vəli Hüseyn oğlu Əliyev (1936–2020) Şəki rayonunun Daşbulaq kəndində anadan olub.

**20 iyul 1946** – Əməkdar mədəniyyət işçisi, rejissor Rafiq Ağahüseyn oğlu Dadaşov (1946-2017) Bakıda anadan olub. Bir sıra filmlərin ("Yol əhvalatı", "Qətl günü" və s.) ikinci rejissoru olub, sənədli filmlər çəkib.

**20 iyul 1948** – Xalq artisti, aktyor, rejissor Ramiz Hacı Ağa oğlu Əzizbəyli (1948 – 9.6.2021) Bakıda anadan olub. Filmlərdə, televiziya tamaşalarında maraqlı rollar oynayıb, "Pirverdinin xoruzu", "Bəxt üzüyü", "Yalan" bədii filmlərinə quruluş verib. Bir çox filmlərin səsləndirilməsində iştirak edib.

**20 iyul 2021** – Əməkdar mədəniyyət işçisi, teatr və kino xadimi Zemfira Baba qızı Babayeva (17.11.1954 – 2021) vəfat edib.

**21 iyul 1928** – Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti "Yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunması" haqqında qərar qəbul edib. 1929-cu il yanvarın 1-dən Azərbaycan SSR-də latın qrafikalı əlifbaya keçid başlandı.

**21 iyul 1950** – Xalq artisti Məmmədbağır Bağırzadə (1950 – 30.10.2005) Bakının Nardaran kəndində doğulub. Xalq və bəstəkar mahnılarının unudulmaz ifaçısı, populyar mahnıların ("Kimlərə qaldı dünya?", "Yadıma düşdü") müəllifi olub.

**21 iyul 1964** – Əməkdar mədəniyyət işçisi Nairə Hafiz qızı Sadıxova (1964 – 4.9.2021) Bakıda doğulub. Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktor müavini olub.

**21 iyul 1981** – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi görkəmli şair, dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul edib. Qərarda Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin xatirə muzeylərinin yaradılması, ədibin adının əbədiləşdirilməsi ilə bağlı digər tədbirlər nəzərdə tutulmuşdu.

### Dünya

**19 iyul 1834** – Fransız rəssamı və heykəltəraşı Edqar Deqa (Edgar Degas – Hilaire Germain de Gas; 1834-1917) anadan olub.

**19 iyul 1893** – Rus şairi Vladimir Mayakovski (1893 - 14.4.1930) Gürcüstanın Kutaisi bölgəsinin Baqdadi kəndində doğulub. 1906-cı ildə ailəsi Moskvaya köçüb. Poemaları: "Şalvarlı duman", "150 000 000", "Vladimir İliç Lenin" və s. Satirik pyesləri: "Misteriya Buff", "Hamam" və s.

**20 iyul 1304** – İtaliya intibahının görkəmli nümayəndəsi, şair Françesko Petrarka (Francesco Petrarca; 1304-1374) anadan olub.

**20 iyul 1864** – İsveç şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1931) Erik Karlfeldt (Erik Axel Karlfeldt; 1864-1931) anadan olub.

**20 iyul 1882** – Alman filosofu Nikolay Hartman (Nikolai Hartmann; 1882-1950) anadan olub. Fəlsəfədə yeni (tənqidi) ontologiyanın banisi sayılır.

**20 iyul 1895** – Macar və amerikan rəssamı, fotoqraf və bəstəkar, konstruktivizm cərəyanının nümayəndəsi Laslo Mohoy-Nad (Laszlo Moholy-Nagy; 1895-1946) anadan olub.

**20 iyul 1924** - Görkəmli rus rejissoru, SSRİ Xalq artisti Tatyana Mixaylovna Lioznova (1924-2011) anadan olub. Filmləri: "Baharın on yeddi anı" teleserialı, "Karnaval" və s.

**21 iyul 1893** – Alman yazıçısı Hans Fallada (əsl adı Rudolf Wilhelm Friedrich Ditzen; 1893-1947) anadan olub. Əsərləri: "Anton və Herda", "Sonra nə, balaca adam?", "Canavarlar içində canavar" və s.

**21 iyul 1899** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1954) Ernest Heminquey (Ernest Miller Hemingway; 1899 – 2.7.1961) anadan olub. Əsərləri: "Kişisiz qadınlar", "Əlvida, silah", "Əcəl zəngi kimin üçün çalınır" (romanlar), "Qoca və dəniz" (povest) və s.

**21 iyul 1910** – Rus rəssamı Vladimir Serov (1910-1968) anadan olub. SSRİ Rəssamlar İttifaqının prezidenti (1962-1968) olub, tarixi mövzuda monumental əsərləri ilə tanınıb.

**21 iyul 1933** – Amerika yazıçısı Con Qardner (John Champlin Gardner; 1933-1982) anadan olub. "Qrendel" romanı ilə məşhurlaşıb, yazıçılıq peşəsini öyrənənlər üçün "Ədəbiyyat sənəti" əsərinin müəllifidir.

**Hazırladı: Vüqar Orxan**

# Rəngkarlıq sənətində ucalan rəssam



Avanqard rəssam Ucal Haqverdiyev ötən əsrin 80-ci illərində rəngkarlıq sənətində öz dəst-xətti ilə tanınmağa başlayıb. Gənc yaşlarından Rasim Babayev, Sənan Qurbanov və Kamal Əhməd kimi rəssamlarla apardığı müzakirələr onun sənət axtarışlarının təməli idi...

Rəssam-illüstrator Ucal Haqverdiyev 9 iyun 1960-cı il Bakıda görkəmli rəssam Həsən Haqverdiyevin ailəsində anadan olmuşdu. 1975-1979-cu illərdə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində oxumuş, sonra Tallində İncəsənət İnstitutuna daxil olsa da, 1984-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Bədii qrafika fakültəsində ali təhsilini tamamlamışdı. Ucal rəssamlığa sanki din səviyyəsində etiqad edərdi. Yaradıcılığının mühüm xarakterik cəhətləri bunlardır: kulturoloji detallar; Antik Yunan və Roma sənəti; "İncil" hekayətləri; bizans freskaları; rus ikona sənəti; fransız impressionizmi; ekspressionizm.

Rəssamın müəllifi olduğu portretlərdən bəhs etsək, deməliyik ki, onun üçün ənənəvi obraz həyat yoldaşı Yelena Haqverdiyevadır. Bəzi portretlərində İtaliya İntibahı ənənələrindən – Sandro Botticelli, Leonardo da Vinçi, Rafael sənətinin dekorativlik və monumentallıq cəhətlərindən ilhamlandığı özünü göstərir. "Anamın portreti", "Butunayın portreti", "Nemanın portreti", "Bəxtiyarın portreti", "Aytənin portreti" və digərləri buna nümunədir. Dərin düşüncələr aləminə qərq olan bu insanlar çox zaman lirika və hüzurla doludur.

Ucal Haqverdiyevin yaradıcılığında önəmli mərhələ din mövzusudur. "Xeyir-dua", "Müqəddəs Varfolomey", "Münəccimlərin səcdə qılması", "Kilsə həyatində", "Çarmıxa çəkilmə", "Adəm və Həvva", "Madonna körpəsi ilə", "İudanın öpüşü", "Müqəddəs İeronim", "Cənnətdən qovulma" və s. əsərləri "İncil" hekayətlərindəki obraz və motivlərin rəssam təxəyyüllündə əksidir.

O, hələ uşaq yaşlarında istedadını "Azərbaycan təbiəti" jurnalında dərc olunan illüstrasiyalarla sübuta yetirmişdi. 90-cı illərdə "Dünya xalqlarının nağılları" silsiləsindən 6 kitaba illüstrasiyalar çəkmişdi. Bu əsərlərdə sanki kiçik nağıl-tamaşanı seyr edirsən. "Qara qoyun" (Şotlandiya), "Maralın sehri" (Meksika), "Leon mirvarisi" (Kanada) kimi nağıllara çəkdiyi illüstrasiyalarda fərqlilik nəzərə çarpır.

Ümumiyyətlə, dünya ədəbiyyatı, poeziya dünyası rəssam üçün əhəmiyyətlidir. O, yaşadığı dünyaya daima gözəllik və harmoniya prizmasından baxıb. Bu emosional duyğularını şeirlərində də əks etdirmişdi.

*Amma mən sizin üçün*
*Səmanı çəkəcəyəm,*
*Və o gözəl rəqsini güllərin, yarpaqların,*
*Ulduzların odunu sönməyə qoymayacam,*
*Həqiqət nuru olsun qoy bütün nağılların.*



Ucal Haqverdiyevin çoxşaxəli fəaliyyətinin növbəti istiqaməti Şərq fəlsəfəsidir. Bu mövzuda "Şərq gözəli", "Şahzadə", "Rəqs", "Şəki" və s. kimi ecazkar əsərlər ərsəyə gətirmişdi. Bu əsərlərdə onun "Qacar üslubu" sənət məktəbindən ilhamlandığı aydın nəzərə çarpır. Rəssamın modernizm cərəyanlarından fovizm, kubizm, futurizmə xas portret və kompozisiyaları da var.

1996-cı ildən "Labirint" yaradıcı qrupunun üzvü olaraq müxtəlif land-art layihələrində fəal iştirak edən rəssam çağdaş Azərbaycan incəsənətində fərqli iz qoymuşdur.

O, ömrünün son beş ilini Bakıda yerləşən Mixail Arxangel apostol kilsəsinin divar rəsmlərini interyer tərtibatına, freska və ikona nümunələri çəkməyə həsr etmişdi. Kilsə monumental divar rəngkarlığı mürəkkəb bir proses olduğu üçün Ucal artıq azad yaradıcılıqdan demək olar ki, imtina etmişdi. Yaradıcılıq emalatxanasında yeni tablolar yaratmağa zamanı yox idi. 2004-cü ildə Ucal Haqverdiyev vəfat etdikdən sonra kilsə rəsmlərini həyat yoldaşı Yelena davam etdirdi.

Vəfatından sonra rəssamın əsərləri müxtəlif beynəlxalq sərgilərdə təqdim edilmişdir.

Bu günlərdə isə Ucal Haqverdiyevin əsərləri Yarat Müasir İncəsənət Məkanında nümayiş olunur.

2022-ci ilin 26 mayında açılan "Mövcudluqda ünsiyyət" adlı sərgidə rəssamın ilk dəfə olaraq genişmiqyaslı retrospektiv sərgisi tamaşaçılara və sənətsevərlərə təqdim edilir. Beləliklə, rəssam bu dünyada olmasa da, tamaşaçılara fərqli duyğular yaşadan tablolarla dünya ilə ünsiyyətini davam etdirir. Sərgi 16 oktyabr tarixinə qədər sənətsevərləri bu fərqli duyğuları yaşamağa dəvət edir...

**Dilarə Əsədli**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı**

№53 (1926)
20 iyul 2022
www.medeniyyet.az

# “ArtCamp Shusha” layihəsinə qatılan rəssamlar Şuşada olublar

Xəbər verdiyimiz kimi, “Şuşa İli” çərçivəsində Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Heydər Əliyev Fondunun dəstəyi ilə yerli və əcnəbi rəssamlar üçün “ArtCamp Shusha” adlı beynəlxalq layihə həyata keçirilir.

Layihədə iştirak üçün İtaliya, Almaniya, Rumıniya, Danimarka və Türkiyədən dəvət edilən rəssamlar, eləcə də onların azərbaycanlı həmkarları Rəşad Mehdiyev, Anar Hüseynzadə, Butunay Haqverdiyev, Günel Ravilova və Vüsalə Ağarazıyeva 12-13 iyul tarixlərində Şuşa şəhərində olublar.

Rəssamlar şəhərdəki tarixi-mədəni abidələr və burada aparılan bərpa-quruculuq işləri ilə yaxından tanış olub, gələcək əsərləri üçün eskizlər ediblər.

Bakıya qayıdan rəssamlar Şuşa təəssüratlarını rəsm əsərlərində əks etdirəcəklər. Yerli və əcnəbi rəssamların ərsəyə gətirəcəyi əsərlər “ArtCamp Shusha” layihəsinin yekun sərgisində nümayiş olunacaq.



# Kanadada Azərbaycandakı dinlər və multikulturalizm haqqında film hazırlanıb

Kanadada fəaliyyət göstərən EL TV ingilis dilində “Azərbaycanda qədim dinlər və multikulturalizm” adlı sənədli film yayımlayıb. Film Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Kanadadakı “Vətən” Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə “History of Azerbaijan” layihəsi çərçivəsində ərsəyə gəlib.




Dövlət Komitəsindən bildirilib ki, filmdə müxtəlif dinlərin Azərbaycanda tarixi, məscidlərin, kilsələrin, sinaqoqların fəaliyyət göstərdiyi, qədim məbədlərin qorunub saxlanıldığı, ölkəmizin zəngin multikultural dəyərlərə malik olduğu barədə ətraflı məlumat verilir. Qeyd edilir ki, Azərbaycan xalqı həmişə başqa millətlərin adət-ənənələrinə, inanclarına hörmətlə yanaşıb, ölkəmiz isə dini baxışlarına görə təqib edilən insanlar üçün sığınacaq məkanına çevrilib.

## Ukraynalı estrada ulduzu Bakıda çıxış edəcək




Sentyabrın 9-da Ukraynanın Xalq artisti, “Avroviziya – 2006”nın iştirakçısı Tina Karol Heydər Əliyev Sarayında konsert verəcək.

Estrada ulduzu Tina Karolun indiyədək 3 albomu işıq üzü görüb. Onun 2006-cı ildə buraxılan “Show me your love” (“Mənə sevgini göstər”) albomu uğur qazanıb və Ukrayna müğənnini “Avroviziya-2006” mahnı müsabiqəsinə göndərməyi qərara alıb. Yunanıstanın paytaxtı Afinada keçirilmiş müsabiqədə T.Karol “Show me your love” mahnısını ifa edərək yeddinci yerə layiq görülüb.

1985-ci ildə Rusiyanın Maqadan vilayətinin Orotukan qəsəbəsində anadan olan Tina (Tatyana) Karol (qızlıq soyadı Liberman) 1992-ci ildə ailəsi ilə birlikdə Ukraynaya köçüb. 2004-cü ildə Kiyev Ali Musiqi Məktəbini bitirib. “Yeni dalğa – 2005” müsabiqəsində iştirak etdikdən sonra Ukraynada populyarlıq qazanıb.

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda italiyalı naşirlə görüş

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Romada yerləşən “Sandro Teti” nəşriyyatının təsisçisi Sandro Teti və bir qrup nümayəndə heyəti ilə görüşüb.



Fonddan bildirilib ki, görüşdə “Sandro Teti” nəşriyyatı ilə mövcud tərəfdaşlığın genişləndirilməsi müzakirə olunub. Fond tərəfindən İtaliyada “Sandro Teti” nəşriyyat evi ilə əməkdaşlıq çərçivəsində çap olunan “Azərbaycan qadın şairlərinin poeziya antologiyası” və “Nəsimi poeziyası” kitabları ümumtürk irsinin təbliğində mühüm addım kimi dəyərləndirilib. Təşkilat tərəfindən bu istiqamətdə görülən işlərin Avropada da maraqla qarşılandığı vurğulanıb.

Görüşdə Türk dünyasının dahi şəxsiyyətlərinin irsinin tanıdılması yönündə kitabların nəşrinin davam etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Milli kulinariyamız “National Geographic Traveller” festivalında




Dövlət Turizm Agentliyinin (DTA) dəstəyi və Milli Kulinariya Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Turizm Bürosu və milli aşpazlardan ibarət nümayəndə heyəti Londonda keçirilən “National Geographic Traveller” kulinariya festivalında iştirak edib.

DTA-dan bildirilib ki, festivalda milli mətbəx nümunələri, Azərbaycanda çay mədəniyyəti, Qarabağ kətəsi, şəkərbura, paxlava, qoğal kimi milli şirniyyatlar, Azərbaycan şərabları təqdim edilib.

Milli aşpazlarımız Cavid Həsənov, Ruslan Əlizadə və Samirə Əmrahovadan ibarət komanda tərəfindən festival iştirakçılarına, o cümlədən tədbiri ziyarət edən media nümayəndələrinə Azərbaycan mətbəxinin ən sevilən təamlarından olan qutab, yarpaqdolması, kələmdolması, müxtəlif növ plovlar, həmçinin kükünün bir sıra növləri hazırlanaraq təqdim edilib.

Festival çərçivəsində milli mətbəximizin incilərinin nümayiş etdirildiyi xüsusi ustad dərsi keçirilib.

Ustad dərslərində aşpazlarımız tərəfindən 2017-ci ildə UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ Siyahısına daxil edilən milli yeməyimiz – dolma hazırlanıb. Dolmanın hazırlanma qaydası ilə yanaşı, auditoriyaya Azərbaycanın mətbəx mədəniyyəti, onun tarixi, fəlsəfəsi, mətbəxin formalaşmasına təsir edən əsas amillər barədə də məlumat verilib.

Ölkəmizin stendini ziyarət edən qonaqların böyük marağına səbəb olan yeməklərdən biri də “Cənub çələngi” olub. 6 növ plov, ləvəngi növləri və turşuqovurmanın vəhdətindən formalaşan bu özünəməxsus təqdimat üsulu milli mətbəximizin müasir təqdimatı istiqamətində atılan mühüm addımdır. Bununla yanaşı, bu yeməkdə ölkənin əsas turizm marşrutlarından biri olan cənub istiqamətinin biomüxtəlifliyi də təmsil olunub.

Tədbirdə iştirak edən Azərbaycan Turizm Bürosunun İdarə heyətinin sədri Florian Zenqstşmid hər bir ölkənin qastronomiyasının onun mədəniyyətinin güzgüsü olduğunu qeyd edib. Bildirib ki, əlverişli coğrafiya və fərqli iqlim zonalarının təsiri ilə yaranan biomüxtəliflik, həmçinin tarixi İpək Yolunun bir parçası kimi müxtəlif xalqların və mədəniyyətlərin qovuşma mərkəzi kimi çıxış etməsi Azərbaycan mətbəxinin dünyanın ən zəngin və ləziz mətbəxlərindən biri kimi formalaşmasına təsir göstərib.

# Anna Netrebkonun “qara makiyaj”ı qalmaqal doğurub

## Rusiyalı vokalçı İtaliya teatrında orijinal Aida obrazında

İtaliyanın Verona şəhərində – məşhur “Arena di Verona” amfiteatrında Cüzeppe Verdinin “Aida” operasının tamaşaya qoyulması siyasi rəng qatılan qalmaqalla müşayiət olunur.

Operada baş qəhrəmanı – həbəş qul Aida obrazını oynayan rusiyalı vokalçı Anna Netrebkonun “qara makiyaj”ı layihəyə dəvət alan bir sıra sənətçilər tərəfindən narazılıqla qarşılanıb. Amerikalı soprano Encel Blyu (Angel Blue) bəyan edib ki, bu, irqçilik ələmətidir və o, etiraz olaraq tamaşada oynamaqdan imtina edib.

Son illər ABŞ-da və bir sıra Avropa ölkələrində neqroid irqi rəngində makiyaj – “blekfeys” sürəkli qalmaqal mövzusu olur. Yeri gəlmişkən, amerikalı vokalçı özü qaradərilidir. “İstənilən halda, o cümlədən bədii əsərlərlə bağlı “blekfeys”dən istifadə arxaik təfəkkürdür və ona müasir cəmiyyətdə yer olmamalıdır”, – deyə E.Blyu bildirib.

Öz növbəsində “Arena di Verona” teatrının nümayəndəsi bəyan edib ki, onlar tarixi səhnələşdirmə edirlər və burada nəyisə dəyişmək çətindir. O bildirib ki, hazırkı səhnə versiyası “Aida” operasının 1913-cü ildəki premyerası üzərində qurulub və o vaxt qara makiyaj heç bir mübahisə doğurmurdu. Bu dəfə də quruluşçular operanı orijinala – ilk tamaşaya maksimum yaxın etmək istəyirlər.

Məsələnin siyasi tərəfinə gəlincə. Bir ay əvvəl – iyunun 18-də “Arena di Verona”da Aida obrazında ukraynalı vokalçı Lyudmila Monastirska səhnəyə çıxmışdı, özü də “qaradərili” makiyajda. Qalmaqal isə rusiyalı sopranonun eyni görkəmdə şəkillərini sosial şəbəkədə paylaşması ilə meydana gəldi.



Xatırladaq ki, bu ilin fevralında Rusiya Ukraynada hərbi əməliyyata başlayandan sonra Qərbin bir sıra teatrları və konsert salonları rusiyalı sənətçilərlə əməkdaşlıqdan imtina ediblər. “Qara siyahı”ya düşənlər arasında opera ulduzu A.Netbreko da vardı. Rusiyalı soprano indiyədək Aida obrazında dünyanın bir çox opera teatrlarında səhnəyə çıxıb, o cümlədən həyat yoldaşı – azərbaycanlı vokalçı Yusif Eyvazovla tərəf-müqabil (Radames) olaraq.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

*Zamanın səhifələrində qalan olaylar, faktlar...*

### 569 il əvvəl...

**17 iyul 1453-cü ildə** Avropa tarixində ən uzun savaş – Fransa ilə İngiltərə arasındakı “Yüzillik müharibə” (1337-1453, fasilələrlə) başa çatıb. Müharibədə son döyüş Bordo yaxınlığında olub və Fransa qüvvələri ingilis qoşunlarını məğlub edib. Maraqlıdır ki, müharibənin yekunlarına dair formal sülh razılaşması imzalanmadı. Bununla belə, İngiltərə Fransada ələ keçirdiyi ərazilərdən məhrum oldu.

### 196 il əvvəl...

**19 iyul 1826-cı ildə** İran qoşunları Araz çayını keçərək Rusiyanın nəzarətində olan Şimali Azərbaycan torpaqlarına daxil olub, ikinci Rusiya-İran müharibəsi (1826-1828) başlanıb. İran Rusiya ilə 1804-1813-cü illər müharibəsindəki məğlubiyyətin əvəzini çıxmağa çalışsa da, yenə məğlub oldu. Türkmənçay müqaviləsinə əsasən (10 fevral 1828), ruslar İranın nəzarətindəki İrəvan və Naxçıvan xanlıqlarını da ələ keçirdilər. Bununla da Araz çayından şimalda bütün Azərbaycan torpaqlarının Rusiyaya ilhaqı başa çatdırıldı.

### 152 il əvvəl...

**19 iyul 1870-ci ildə** Fransa və Prussiya arasında müharibə başlayıb. Savaşda tərəflər bir-biri ilə tarixi haqq-hesab çəkmək istəyirdi. Müharibədən Otto Bismarkın rəhbərlik etdiyi almanlar qalib çıxdılar. 1871-ci ildə Fransa Elzas və Lotringiya bölgələrini itirdi. Fransanın üzərinə ağır təzminat qoyuldu, ordusu tərk-silah edildi. 1918-ci ildə, I Dünya müharibəsinin yekununda eyni aqibət Almaniyanı gözləyirdi.

### 115 il əvvəl...

**17 iyul 1907-ci ildə** Peterburqda Rusiya və Yaponiya arasında sülh sazişi (1904-1905-ci il müharibəsinin yekunlarına dair) imzalanıb. Sazişə əsasən, Mancuriya (indiki Çinin şimal-şərq ərazisi) iki ölkə arasında bölüşdürüldü. Tərəflər Çinin müstəqilliyini tanıdıqlarını təsbitlədilər. Bundan əlavə, Koreya Yaponiyanın, Monqolustan isə Rusiyanın nəzarətinə keçdi.

### 114 il əvvəl...



**18 iyul 1908-ci ildə** Səttarxanın başçılıq etdiyi inqilab (Məşrutə inqilabı) Təbrizdə qələbə çalıb. Təbriz İran inqilabının (1905-1911) mərkəzinə çevrilib. 1909-cu ildə Cənubi Azərbaycanda yerli hakimiyyət orqanları qurulmağa başlandı. 1910-cu ilin martında Səttərxanın fədailəri Tehrana yürüşə başladılar, lakin İran monarxiyasının çar Rusiyasını köməyə çağırması ilə inqilab süqut etdi.

### 102 il əvvəl...

**17 iyul 1920-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin keçmiş daxili işlər naziri (iyun-dekabr 1918) Behbud ağa Cavanşir İstanbulda erməni terrorçusu Misak Torlakyan tərəfindən qətlə yetirilib.

**19 iyul 1920-ci ildə** Xalq Cümhuriyyətinin qurucularından biri, 1918-1920-ci illərdə Azərbaycan Parlamentinin sədr müavini olmuş Həsən bəy Ağayev Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirilib.

### 77 il əvvəl...

**17 iyul 1945-ci ildə** Berlin yaxınlığındakı Potsdam şəhərində faşist Almaniyası üzərində qələbənin və II Dünya müharibəsinin nəticələrinə dair beynəlxalq konfrans işə başlayıb. Potsdam konfransında üç qalib dövlətin – SSRİ, ABŞ və Britaniyanın liderləri İosif Stalin, Harri Trumen və Uinston Çörçill iştirak edirdi. Konfransda Almaniyanın sektorlara bölüşdürülməsi razılaşdırıldı. Konfransın qərarına əsasən, Yaponiya ilə haqq-hesab çəkilməsi SSRİ-nin üzərinə (ABŞ-ın dəstəyi ilə) qoyuldu.

### 73 il əvvəl...

**19 iyul 1949-cu ildə** Fransanın Cənub-Şərqi Asiyadakı müstəmləkəsi olan Laos müstəqilliyini elan edib. Laos II Dünya müharibəsindən sonra, 1945-ci ilin oktyabrında müstəqilliyini bəyan etsə də, yenidən fransızlar tərəfindən işğal edilmişdi. Fransa keçmiş müstəmləkəsini müstəqil dövlət olaraq yalnız 1953-cü ildə tanıdı.

### 49 il əvvəl...

**17 iyul 1973-cü ildə** Əfqanıstanda monarxiya devrilib, ölkə respublika elan olunub. Məhəmməd Zahir şah taxt-tacdan əl çəkib və mühacirətə (İtaliyaya) gedib. Sonrakı illərdə Əfqanıstanda fərqli təmayüllü siyasi rejimlər (o cümlədən 10 ildən artıq SSRİ-nin yönəltdiyi rejim) bir-birini əvəz etsə də, ölkədə sabitlik indiyədək bərqərar olmayıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə, ittifaqın idarə heyəti və üzvləri görkəmli bəstəkar, Xalq artisti

**Sevda İbrahimovanın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

***

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov millət vəkili Aqil Abbasa bacısı

**Ədibə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2030
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641